# VAŞİNQTON GÖRÜŞÜNÜN YARATDIĞI REALLIQ



ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə avqustun 8-də Azərbaycan və Ermənistan arasında əldə olunan Vaşinqton razılaşmaları bölgədə cərəyan edən siyasi proseslərin axarını müəyyənləşdirməkdə davam edir. Sülh prosesi kimi tarixə düşən bu danışıqların əhəmiyyəti gün keçdikcə daha da artmaqdadır.

Vaşinqton razılaşmalarının kağız üzərində qalmaması üçün arxa fonda tərəflər arasında intensiv dialoq və müzakirələr aparılır. Bu razılaşmalar həm də Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş tarixi qələbədən sonra yaradılan yeni reallıqların beynəlxalq ictimaiyyət tərəfindən tam şəkildə qəbul edildiyini göstərir.

SƏHİFƏ 4-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

30 AVQUST ŞƏNBƏ 2025 I № 33 (4234) Qiyməti - 60 qəpik

www.kaspi.az






## MİNSK QRUPU TARİXƏ QOVUŞUR

Minsk Qrupunun ləğvi ilə bağlı Azərbaycan və Ermənistanın XİN başçıları tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət ünvanlanıb. Sentyabrın 1-də isə yekun qərarın verilməsi gözlənilir.

SƏHİFƏ 2-də



## BÜTÜN MƏZUNLARI TƏLƏBƏ OLAN KƏND MƏKTƏBİ

Zərdab rayonunun Şirvani adına İsaqbağı kənd tam orta məktəbinin bütün məzunları tələbə adını qazanıblar. Məktəbin direktoru Dayangül Vəliyeva deyir ki, bu nəticə aparılan sistemli iş sayəsində əldə edilib.

SƏHİFƏ 7-də



## PEŞƏKAR SÜRÜCÜ, YÜKSƏK XİDMƏT

İslahatlardan əvvəl taksi ilə qısa məsafəli sifarişlər 40 faiz təşkil edirdisə, hazırda bu rəqəm 13-14 faizə qədər düşüb. Nəticədə sərnişinlər qısa məsafə üçün avtobus və digər ictimai nəqliyyatdan istifadə edirlər.

SƏHİFƏ 12-də

REGİONDA GÜC BALANSI BİZİM XEYRİMİZƏDİR

# AYDIN VƏ BİRMƏNALI MÖVQE



Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində həm regional, həm də beynəlxalq məsələlərlə bağlı Azərbaycanın mövqeyini bir daha detallı şəkildə açıqlayıb. Müsahibə dünya mediasında böyük maraq oyadıb.

### RƏSMİ BAKININ MÖVQEYİ ƏDALƏTLİDİR

Bölgədə cərəyan edən proseslərə təsir göstərən ən mühüm amillərdən biri Moskva-Bakı münasibətlərində yaşanan gərginlikdir. Bakının bu məsələdə mövqeyi ədalətlidir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, münasibətlərin korlanmasına görə məsuliyyət bizim üzərimizə düşmür.

### AZƏRBAYCANIN VASİTƏÇİLİK MİSSİYASI

Azərbaycanın müstəqil xarici siyasət kursu uğurla və milli maraqlara uyğun olaraq davam etdirilməkdədir. Burada Bakının dost və müttəfiq adlandırdığı ölkələr arasında vasitəçilik missiyası mühüm yer tutur. Prezident müsahibəsində bu məqamlara da xüsusi diqqət yetirib.

SƏHİFƏ 3-də

“YALNIZ ŞƏKİLLƏRDƏ QALDI HƏR ŞEY”

# “MAAŞ OLMADAN DA İŞLƏMƏYƏ RAZI İDİM”

Böyük fədakarlıqla İrəvanda Azərbaycan teatrını yaşadıblar. Teatrın fəaliyyəti Bakıda bərpa olunandan sonra qaçqınlıqda yaşayan Qərbi azərbaycanlıların dərdini əks etdirən tamaşalarla çıxış ediblər.

Xalq artisti Vidadi Əliyevlə ömür-gün yoldaşı, Xalq artisti Elmira İsmayılovanın bu il 80 yaşı tamam olur (1 sentyabr Vidadi Əliyevin, 13 noyabr Elmira İsmayılovanın 80 illik yubileyidir). İndi onlarla söhbət etmək o qədər də asan deyil. İki ildən çoxdur ki, mətbuatla ünsiyyət qurmurlar.



SƏHİFƏ 8-9-da



## ANTİMİQRANT ƏHVAL-RUHİYYƏSİ PİK HƏDDƏ

Britaniyalıların 70 faizindən çoxu hesab edir ki, Kir Starmerin rəhbərlik etdiyi hökumət qeyri-qanuni miqrantların hotellərdə yerləşdirilməsi ilə bağlı yaranmış böhranın həllində zəif iş görür.

SƏHİFƏ 5-də



## “XARİCDƏ ATTESTATLA TƏHSİL” TƏLƏSİ

Qəbul imtahanlarında kəsilənlərin əksəriyyəti ənənəvi olaraq, “xaricdə attestatla təhsil” almaq yolunu seçirlər. Bu seçim get-gedə kütləvi xarakter alır. Amma bu yolu seçənlər özlərini ciddi risklərlə də üz-üzə qoyurlar.

SƏHİFƏ 13-də



## SƏKKİZ İL SONRA TƏKRARLANAN UĞUR

“Qarabağ” Çempionlar Liqasının Liqa mərhələsində iştirak etmək hüququ qazandı. Mövsümün sonunda heyətdə baş verən dəyişikliklərə görə komandanın bu uğuru əldə edəcəyi o qədər də inandırıcı görünmürdü.

SƏHİFƏ 16-də



İdxaldan qaynaqlanan bahalaşma

SƏHİFƏ 6-da



Zavod var, xammal yox

SƏHİFƏ 11-də



Azaltmağa çalışsaq da, artır

SƏHİFƏ 14-də

SOCAR

SOCAR beynəlxalq uğura imza atıb

SƏHİFƏ 10-da



Orqan alətinin vurğunu

SƏHİFƏ 15-də



## "Qarabağ" futbol klubuna beş milyon manat ayrılıb

Prezident İlham Əliyev "Qarabağ" futbol klubuna maliyyə dəstəyi göstərilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, UEFA Çempionlar Liqasının Liqa mərhələsinə vəsiqə qazanması ilə əlaqədar Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Qarabağ" futbol klubuna 5,0 (beş) milyon manat ayrılıb.
Maliyyə Nazirliyinə bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə isə Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.
Qeyd edək ki, "Qarabağ" iki oyunun nəticəsinə əsasən Macarıstanın "Ferentsvaroş" komandasına 5:4 hesabı ilə qalib gələrək Çempionlar Liqasının Liqa mərhələsinə vəsiqə qazanıb.



## Azərbaycan ŞƏT-in fəal dialoq tərəfdaşıdır

"Azərbaycan və Ermənistan Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) fəal dialoq tərəfdaşlarıdır".
"Report" xəbər verir ki, bunu təşkilatın baş katibi Nurlan Yermekbayev "RİA Novosti"yə müsahibəsində bildirib. Onun sözlərinə görə, hər iki ölkə həm ümumi əməkdaşlıq çərçivəsində, həm də birgə tədbirlərin keçirilməsində fəal şəkildə qarşılıqlı əlaqədədir. Azərbaycan və Ermənistanın təşkilatdakı statusunun yüksəldilməsi planlarından danışan N.Yermekbayev vurğulayıb ki, yeni ölkələrin qəbulu ilə bağlı qərarı bütün üzv dövlətlər konsensus yolu ilə qəbul edir. "Hazırda bütün mövcud müraciətlər ŞƏT-in üzvü olan dövlətlər tərəfindən nəzərdən keçirilir", - baş katib əlavə edib.

# MİNSK QRUPU TARİXƏ QOVUŞUR




Minsk qrupunun ləğvi ilə bağlı Azərbaycan və Ermənistanın XİN başçıları tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət ünvanlanıb. Sentyabrın 1-də isə yekun qərarın verilməsi gözlənilir.

FUAD ABASOĞLU

ATƏT-in Minsk qrupu artıq tarixə qovuşur. Sentyabrın 1-də Minsk qrupunun ləğvi ilə bağlı yekun qərarın verilməsi gözlənilir. Qeyd edək ki, avqustun 9-da Vaşinqtonda baş tutan Azərbaycan və Ermənistan liderləri arasında görüşdə əldə olunan razılaşmaya əsasən, Bakı və İrəvan təşkilata birgə müraciət ünvanlayıblar. Bu addım Bakının sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü əsas şərtlərdən biri idi. İrəvan uzun müddət Minsk qrupunun buraxılmasına qarşı çıxsa da, Bakının diplomatik və siyasi gedişləri qarşısında geri çəkilmək məcburiyyətində qaldı.

### İKİ ƏSAS ŞƏRTDƏN BİRİ

Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev jurnalistlərə açıqlamasında bildirib ki, Ermənistanla sülh sazişinin imzalanması üçün iki əsas şərt var idi: "Bunlardan biri ATƏT-in Minsk qrupunun ləğvi, digəri isə Ermənistan konstitusiyasına dəyişikliklər edilməsidir. Bunlardan biri həyata keçdi. Artıq Minsk qrupunun ləğvi ilə bağlı Azərbaycan və Ermənistanın XİN başçıları tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət ünvanlanıb. Sentyabrın 1-də isə yekun qərarın verilməsi gözlənilir".
Nazir müavini vurğulayıb ki, digər şərt hələ də yerinə yetirilməmiş qalır: "Ermənistan konstitusiyasına dəyişiklik edildikdən sonra sülh sazişinin imzalanması üçün zəruri zəmin formalaşmış olacaq. Hazırda konstitusiya dəyişikliyi ilə bağlı rəsmi olaraq heç bir məlumat yoxdur. Ermənistan tərəfindən hər hansı bir təşəbbüs irəli sürülməyib. Ancaq biz gözləntidəyik. Təbii ki, istəyimiz sülh sazişinin tezliklə imzalanmasıdır. Bu, dəyişiklik baş verdikdən sonra ən qısa müddətdə baş tuta bilər".


Riçard Hoqland
Aleksandr Lukaşeviç

## ABŞ VƏ FRANSADAN DƏSTƏK

Məsələ ilə bağlı ABŞ-nin mövqeyi bu müraciətin Vaşinqtonda imzalanması baxımdan tam aydındır. Fransa da ilk gündən Minsk qrupunun buraxılmasına dəstək nümayiş etdirib.
"Fransa ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan liderləri arasında Vaşinqtonda əldə olunan razılaşmanı alqışlayıb və tərəflərin ATƏT-in Minsk qrupunun strukturlarını ləğv etməyə başlamaq çağırışına qoşulub", - Fransa Xarici İşlər Nazirliyinin 9 avqust bəyanatında bildirilib.

### "GƏLƏCƏYƏ DOĞRU İRƏLİLƏMƏK LAZIMDIR"

ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, amerikalı ekspert Riçard Hoqland da bu qənaətdədir ki, Minsk qrupunun ləğvinin vaxtı doğrudan da çatıb və hətta keçib. O bildirib ki, bu qrup Azərbaycanla Ermənistan arasındakı Qarabağ probleminin həlli üçün onilliklər ərzində danışıqlar aparıb. "Hələ işlənəcək detallar var. Çox müsbət haldır ki, Bakı və İrəvan indi birlikdə işləyirlər. Bu, o deməkdir ki, Minsk qrupuna həqiqətən də artıq ehtiyac yoxdur. Bu, keçmişdə qaldı və gələcəyə doğru irəliləmək lazımdır", - deyə Hoqland əlavə edib.

## QƏRARIN QƏBULUNA RUSİYA DA MANE OLMAYACAQ

Bu məsələdə ən çox sual doğuran məqamlardan biri Azərbaycan və Ermənistanın birgə müraciətlərinə baxmayaraq, Rusiyanın susqunluq nümayiş etdirməsi idi. Nəhayət Moskva da Minsk qrupunun buraxılmasına dair rəsmi mövqeyini açıqlayıb.
"Rusiya Azərbaycan və Ermənistanın Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupunun buraxılması ilə bağlı birgə qərarını dəstəkləyir, qrupun 2025-ci ilin dekabrına qədər tamamilə ləğv edilməsi planlaşdırılır". Bu barədə Rusiyanın ATƏT-dəki daimi nümayəndəsi Aleksandr Lukaşeviç RBK-ya bildirib. Rusiyalı diplomatın sözlərinə görə, söhbət üç institutun - Minsk qrupunun, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin vəzifəsinin və yüksək səviyyəli planlaşdırma qrupunun fəaliyyətinin dayandırılmasından gedir.
"Bu institutların saxlanılmasının məqsədəuyğun olmaması ilə bağlı tərəflərin (Azərbaycan və Ermənistanın) mövqeyini nəzərə alaraq, onların buraxılmasına mane olmaq üçün əsas görmürük", - Lukaşeviç bildirib. O qeyd edib ki, əgər sentyabrın 1-dək heç kim qrupun buraxılmasına etiraz bildirməsə, "qərar qəbul edilmiş hesab olunacaq".
"Nəzərə almaq lazımdır ki, bu qərarın icrası ilə bağlı inzibati və maliyyə tədbirlərinin həyata keçirilməsi bir neçə ay vaxt aparacaq. ATƏT-də bu işlərin bu ilin dekabrından gec olmayaraq başa çatdırılacağına ümid edirlər", - Rusiyanın daimi nümayəndəsi vurğulayıb.

# AYDIN VƏ BİRMƏNALI MÖVQE



Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində həm regional, həm də beynəlxalq məsələlərlə bağlı Azərbaycanın mövqeyini bir daha detallı şəkildə açıqlayıb. Müsahibə dünya mediasında böyük maraq oyadıb.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsi dünya mediasında böyük maraq oyadıb. Dövlət başçısı həm regional, həm də beynəlxalq məsələlərlə bağlı Azərbaycanın mövqeyini bir daha detallı şəkildə açıqlayıb. Ermənistanla sülh prosesi, Rusiya-Azərbaycan münasibətləri, Bakının vasitəçilik missiyası, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində əməkdaşlıq, Körfəz ölkələri ilə münasibətlərin gələcəyinə dair açıqlamalar verən Prezident İlham Əliyev mühüm məqamlara toxunub.

Qeyd edək ki, hazırda ən çox müzakirə edilən məsələlərdən biri Ermənistanda hakimiyyət dəyişikliyinin sülh prosesinin gələcəyinə hansı formada təsir edəcəyi ilə bağlıdır. Prezident İlham Əliyevin bu məsələdə mövqeyi aydın və birmənalıdır.

"Əgər Ermənistanın hər hansı gələcək hökuməti hakimiyyətə gəldiyi vaxtdan asılı olmayaraq, Vaşinqtonda imzalanan sənədi şübhə altına qoyarsa, Ermənistan ciddi çətinliklərlə üzləşəcək. Çünki regiondakı güc balansı hər baxımdan tamamilə bizim xeyrimizədir. Düşünürəm ki, bu, hər kəsə aydındır. Əgər Ermənistan bir daha bizim ərazi bütövlüyümüzü şübhə altına qoysa, biz də adekvat cavab verəcəyik", - dövlət başçısı qeyd edib.

### "BU, BİZİM XALQIMIZA QARŞI MİSLİ GÖRÜNMƏMİŞ HƏRƏKƏT İDİ"

Bölgədə cərəyan edən proseslərə təsir göstərən ən mühüm amillərdən biri, təbii ki, Moskva-Bakı münasibətlərində yaşanan gərginlik və onun səbəbləridir. Bakının bu məsələdə sərgilədiyi mövqe də ədalətli və adekvatdır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, münasibətlərin korlanmasına görə məsuliyyət bizim üzərimizə düşmür: "Biz yalnız konstruktiv və hüquqi şəkildə cavab veririk, lakin heç vaxt bizə qarşı təcavüz əlamətlərinə və təzahürlərinə, yaxud hörmətsizliyə dözməyəcəyik".

Səbəblərə gəldikdə isə, bu, hər kəsə bəllidir. "Azərbaycanın mülki təyyarəsinin Rusiya tərəfindən vurulması və Rusiya rəsmilərinin buna reaksiyası ölkəmizdə çox böyük məyusluq və təəssüf doğurdu", - dövlət başçısı qeyd edib.

İlham Əliyev müharibə zamanı Rusiyaya məxsus helikopterin vurulması məqamı ilə müqayisə də aparıb: "Müharibənin sonuncu günündə - noyabr ayının 9-da Azərbaycan öz sərhədinə yaxınlaşan rus helikopterini təsadüfən vurdu, halbuki o, orada olmalı deyildi. Çünki otuz il ərzində rus helikopterləri Ermənistan ərazisindən Azərbaycan sərhədinə heç vaxt yaxınlaşmamışdı. O, Ermənistandan uçaraq gəlirdi. Helikopteri vuranlar üçün açıq-aydın idi ki, Ermənistan helikopteri ərazimizə daxil olur, ona görə də onlar onu vurdular. Həmin gün mən dərhal Rusiya Prezidentinə zəng etdim və üzrxahlığımı bildirdim. Biz həlak olan pilotların ailələrinə və Müdafiə Nazirliyinə dərhal təzminat ödədik. Biz istintaq başlatdıq və bu faciəli səhvə yol verənlər məsuliyyətə cəlb olundular. Lakin Rusiya tərəfindən belə addımların atıldığını görmədik. Beləliklə, noyabrın 9-da baş verən bu faciəli hadisə və davranışımız bizi Azərbaycana qarşı eyni münasibətin sərgilənməsinə hazır etdi, çünki iki ölkə bir-birini dost adlandırır".

Prezident digər səbəb kimi, bu gün Rusiyada azərbaycanlılara olan münasibəti önə çəkib: "Rusiyada azərbaycanlılara qarşı səbəbsiz hücumlar başladı. İki insan qətlə yetirilmişdir və işgəncələrə məruz qalmışlar. Sonra da rəsmi məlumata görə, onların ürək tutmasından öldüyü bildirildi. Hətta onlar deyilənlərə görə, 20 il bundan əvvəl cinayət törədiblərsə, onlar insandırlar, onlarla belə davranılmamalıdır. Bu, nə münasibətdir? Onların sırasında Azərbaycan vətəndaşları, Azərbaycan mənşəli Rusiya vətəndaşları da var idi. Bu, bizim xalqımıza qarşı misli görünməmiş hərəkət idi".

## BAKININ VASİTƏÇİLİK MİSSİYASI

Bununla belə, Azərbaycanın müstəqil xarici siyasət kursu uğurla və milli maraqlara uyğun olaraq davam etdirilməkdədir. Burada Bakının dost və müttəfiq adlandırdığı ölkələr arasında vasitəçilik missiyası mühüm yer tutur. Prezident müsahibəsində bu məqamlara da xüsusi diqqət yetirib. İstər Türkiyə-İsrail, istərsə də Suriya-İsrail münasibətlərinin normallaşdırılmasında Azərbaycanın töhfə verməyə hər zaman hazır olduğunu qeyd edib. "Suriya ilə İsrail rəsmiləri arasında danışıqlar bizim vasitəçiliyimizlə baş tutdu. Biz ətrafımızda sülhün olmasını istəyirik. Təcavüz və müharibədən əziyyət çəkən ölkə və xalq olaraq biz qaçqınlığın, evsizliyin, qaz, elektrik enerjisinə, suya və ya qidaya malik olmamağın nə olduğunu başa düşürük", - Prezident qeyd edib.

Bakının İsrail-Türkiyə münasibətlərinə də yanaşması məntiqli və uzaqgörəndir. "Türkiyə ilə İsrail arasında normallaşmanın birinci mərhələsində Azərbaycanın rolu hər iki ölkə tərəfindən qiymətləndirilib. Bilirsiniz ki, İsrail Prezidenti İsxak Hersoq Türkiyəyə səfər etdi. Biz şad olduq ki, iki ölkə arasında ümumi dil tapılır. Hazırda isə Türkiyə ilə İsrail arasında münasibətlər hər zaman olduğundan daha gərgindir. Ona görə də əgər bizdən kömək etmək xahiş olunsa, biz bunu edərik. Əgər edilməsə, ola bilsin ki, biz, sadəcə olaraq, ümumi dil tapmağa yardım etmək üçün çox da ictimailəşdirilməyən diplomatik səylər göstərməyə çalışarıq", - dövlət başçısı qeyd edib.



### TDT VƏ KÖRFƏZ DÖVLƏTLƏRİ İLƏ ƏMƏKDAŞLIQ

Bu bəyanatlar artıq Azərbaycanın tək regional yox, həm də beynəlxalq miqyaslı oyunçuya çevrildiyini göstərir. Mövcud reallıq Bakının qarşılıqlı əməkdaşlıq coğrafiyasını genişləndirməyi qarşısına hədəf qoyduğuna işarədir. Elə TDT və Körfəz ölkələri ilə əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsi faktını xatırlatmaq kifayətdir. Prezident İlham Əliyev müsahibəsində bu iki istiqamət üzrə Bakının gözləntilərinə də toxunub. Onun sözlərinə görə, TDT-nin bütün üzvlərində siyasi sabitlik, bir-biri və hamısı arasında dost münasibətlər mövcuddur: "Bu, təşkilatı həqiqətən nadir edir. Ona görə də biz onu konkret layihələrlə, investisiyalarla, enerji, daşımalar, mədəniyyət layihələri ilə möhkəmləndirməliyik. Ona görə də mən gələcəkdə bu təşkilatı mühüm qlobal iştirakçılardan biri kimi görürəm".

Körfəz ölkələri ilə əməkdaşlığa gəldikdə isə, buraya tək siyasi yox, həm də mühüm iqtisadi layihələr daxildir. Enerji, turizm, kənd təsərrüfatı kimi prioritet sahələr qarşılıqlı əməkdaşlıq fonunda ikitərəfli münasibətlərdə mühüm yer tutmağa başlayıb.

Beləliklə, Azərbaycan bu gün sözün əsl mənasında Avrasiyanın döyünən ürəyinə çevrilməkdədir. Bakıdan dünyanın dörd bir tərəfinə istiqamətlənən, hədəfi sülh, sabitlik, iqtisadi inteqrasiya olan, qarşılıqlı bərabərlik və hörmət prinsiplərinə əsaslanan əməkdaşlıq mesajları dünya birliyi tərəfindən rəğbətlə qarşılanır, qəbul edilir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# VAŞİNQTON GÖRÜŞÜNÜN YARATDIĞI REALLIQ

Ağ Ev Bakının milli maraqlara əsaslanan siyasi kursunu tam dəstəkləyir. Sülh prosesi Prezident Donald Trampın şəxsi nəzarətindədir. Vaşinqton razılaşmalarının reallığa çevrilməsi ABŞ Prezidenti üçün də prioritetdir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə avqustun 8-də Azərbaycan və Ermənistan arasında əldə olunan Vaşinqton razılaşmaları bölgədə cərəyan edən siyasi proseslərin axarını müəyyənləşdirməkdə davam edir. Sülh prosesi kimi tarixə düşən bu danışıqların əhəmiyyəti gün keçdikcə daha da artmaqdadır. Yaşanan proseslərdən də göründüyü kimi, Vaşinqton razılaşmalarının kağız üzərində qalmaması üçün arxa fonda tərəflər arasında intensiv dialoq və müzakirələr aparılır. Bu razılaşmalar həm də Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş tarixi qələbədən sonra yaradılan yeni reallıqların, Azərbaycanın nüfuzunun və maraqlarının beynəlxalq ictimaiyyət tərəfindən tam və birmənalı şəkildə qəbul edildiyini göstərir.

### TRAMPIN "SİZ BÖYÜK LİDERSİNİZ" MESAJI

Qeyd edək ki, Cənubi Qafqazda sülh prosesində maraqlı olmayan bəzi dairələrin Vaşinqton görüşünün əhəmiyyətini azaltmaq cəhdlərinin də şahidi oluruq. Lakin Prezident İlham Əliyevin ortaya qoyduğu mövqe, yürüdülən siyasət bu cəhdlərin heç bir nəticə verməyəcəyinə dəlalət edir. Bu məqamda ABŞ Prezidenti Donald Tampın azərbaycanlı həmkarına göndərdiyi xatirə fotosunun hansı siyasi məna kəsb etdiyini vurğulamaq yerinə düşər. Bu günlərdə Prezident İlham Əliyev Donald Trampın hədiyyəsi ilə əlaqədar sosial media hesablarında paylaşım edib. Xatirə fotosunda Donald Tramp Azərbaycan Prezidenti ilə bağlı "Siz böyük Lidersiniz!" sözlərini yazıb. Əslində bu ifadənin bölgəmizdə cərəyan edən hadisələr fonunda hansı anlam daşıdığı məlumdur. Ağ Ev Bakının milli maraqlara əsaslanan siyasi kursunu tam dəstəkləyir. Sülh prosesi Prezident Donald Trampın şəxsi nəzarətindədir. Vaşinqton razılaşmalarının reallığa çevrilməsi ABŞ Prezidenti üçün də prioritetdir.



## BÖLGƏMİZ ÜÇÜN SİYASİ ƏHƏMİYYƏTİ

Elə sülh prosesinin tərəfləri olan Azərbaycan və Ermənistanda da siyasi gündəliyin əsas prioritetini məhz bu razılaşmalar təşkil edir desək, yanılmarıq. Bugünlərdə Bakıda Nazirlər Kabinetinin Prezident İlham Əliyevin Vaşinqton səfərinin yekunlarına həsr edilən xüsusi iclası keçirildi. Burada səsləndirilən fikirlər məlum səfərin siyasi və iqtisadi nəticələrinin Azərbaycan və ümumilikdə bölgəmiz üçün nə dərəcədə mühüm əhəmiyyət daşıdığını bir daha ortaya qoydu.

Baş nazir Əli Əsədovun sözlərinə görə, Azərbaycanın diplomatiya tarixinə qızıl hərflərlə yazılan 8 avqust Zəfəri Prezident İlham Əliyevin güclü liderliyinin, qətiyyətinin və prinsipiallığının məntiqi nəticəsidir.

İqtisadiyyat naziri Mikayıl Cabbarovun sözlərinə görə, ABŞ Prezidenti Donald Trampın ölkə başçımızı qarşılaması və ona qarşı səmimi münasibəti İlham Əliyevin böyük siyasi lider kimi qəbul etməsinin nəticəsidir: "Trampın Azərbaycan xalqını qüdrətli xalq adlandırması, simvolik olaraq Ağ Evin açarını təqdim etməsi ikitərəfli münasibətlərin strateji mövqeyə yüksəldiyindən xəbər verir".

Vaşinqton görüşünün bölgəmiz üçün siyasi əhəmiyyəti və ilkin nəticələri artıq məlumdur. Azərbaycan və Ermənistan arasında faktiki sülh əldə edilib. İrəvan Azərbaycanın ərazi bütövlüyü və suverenliyini birmənalı şəkildə tanıyıb. Minsk Qrupunun buraxılması ilə bağlı ikitərəfli birgə müraciət qəbul olunub. Kommunikasiya əlaqələrinin açılması və Naxçıvana maneəsiz gediş-gəlişin təmini ilə bağlı razılıq əldə olunub.



## ORTA DƏHLİZİN ÖTÜRÜCÜLÜK QABİLİYYƏTİ ARTACAQ

Bu tarixi səfərin iqtisadi nəticələrinin nələr ola biləcəyi daha çox maraq doğurur. Təbii ki, söhbət Zəngəzur dəhlizindən gedir. Baş nazirin müavini Şahin Mustafayevin sözlərinə görə, Cənubi Qafqazda avtomobil yolları açılandan sonra Körfəz ölkələri-Naxçıvan-Cəbrayıl-Füzuli-Ağdam-Yevlax-Qara Dəniz avtomobil marşrutu Körfəz ölkələrini Qara Dənizə bağlayan yeni marşrut olacaq. İqlim və relyefinə görə bu marşrut il boyu daimi fəaliyyət göstərəcək. Kommunikasiyaların açılması həm də Cənubi Qafqazın enerji xəritəsini yenidən formalaşdıracaq, xüsusən də Azərbaycanın Avropaya və dünyaya enerji tranzit rolunu daha da artıracaq. Zəngəzurdan keçəcək yolun açılması Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) ötürücülük qabiliyyətini ildə 15 milyon ton artıracaq.

### ABŞ-AZƏRBAYCAN İQTİSADİ ƏLAQƏLƏRİ

Dövlət başçısının ABŞ səfəri tək bölgədə sülhün təmini yox, həm də Vaşinqton-Bakı münasibətləri baxımından mühüm əhəmiyyətə malikdir. Burada da ikitərəfli siyasi və iqtisadi əlaqələrdə yeni səhifənin açıldığı xüsusi vurğulanır. İqtisadiyyat naziri Mikayıl Cabbarovun sözlərinə görə, Vaşinqtondakı tarixi görüşdən sonra Azərbaycan və ABŞ arasında Çərçivə Sazişinin imzalanması üçün əlverişli şərait yaranıb, bununla bağlı ilkin müzakirə aparılıb. Azərbaycan-ABŞ ticarət əməkdaşlığı uzun illərdir ki, yüksələn xətlə inkişaf edir. Bunu statistik rəqəmlər də sübut edir. 2024-cü ildə iki ölkənin ticarət dövriyyəsinin dəyəri 2023-cü illə müqayisədə 94 faiz çox - 1,7 milyard ABŞ dolları təşkil edib ki, bunun da 1,6 milyard dolları ABŞ-dən idxalın, 135 milyon dolları isə bu ölkəyə ixracın payına düşüb. Azərbaycan ABŞ şirkətləri üçün investisiya cəlbediciliyini saxlayır. Kənd təsərrüfatı, sənaye, nəqliyyat, tikinti, ticarət sahələrində 300 şirkət qeydiyyata alınıb.

### İRƏVANDAN MÜSBƏT SİQNALLAR

Vaşinqton razılaşmalarının uğurla reallaşdırılması istiqamətində İrəvandan da müsbət siqnallar gəlməkdədir. Baş nazir Nikol Paşinyan bildirib ki, Ermənistan avqustun 8-də Vaşinqtonda Azərbaycanla imzalanmış sənədlərlə yeni inkişaf mərhələsinə qədəm qoyub. Xarici işlər naziri Ararat Mirzoyan isə deyib ki, sülh təkcə Ermənistan üçün yox, bütün Cənubi Qafqaz üçün əhəmiyyətlidir. XİN başçısı bildirib ki, sülh gündəliyinin həyata keçirilməsi diplomatik orqanlar da daxil olmaqla Ermənistan hökumətinin prioritet vəzifəsidir.

# ANTİMİQRANT ƏHVAL-RUHİYYƏSİ PİK HƏDDƏ

Britaniyalıların 70 faizdən çoxu hesab edir ki, Kir Starmerin rəhbərlik etdiyi hökumət qeyri-qanuni miqrantların hotellərdə yerləşdirilməsi ilə bağlı yaranmış böhranın həllində zəif iş görür. Bunu "YouGov"un avqustun 20-21-də keçirdiyi ictimai rəy sorğusunun nəticələri sübut edir.






AZƏR NURİYEV

Böyük Britaniyada miqrantlarla bağlı gərginlik yaşanır. Avropanı bürüyən antimiqrant hərəkat nəhayət bu ölkəyə də gəlib çatıb. Etirazlar artıb, ölkə miqrasiya məsələsində ikiyə bölünüb. Bir qisim miqrantlara qarşı sərt tədbirlərin görülməsini, digər qisim isə əksini istəyir. Gərginlik artıq iki ildir ki, hökm sürür. İş o yerə çatıb ki, hətta Ukrayna qaçqınlarına belə, evlərinə qayıtmaları tövsiyə edilib.

### HOTEL VƏ YATAQXANALARIN BAĞLANMASI TƏLƏBİ

Sərt qaydalar ona gətirib çıxarıb ki, bir sıra şəhərlərdə antimiqrant nümayişləri və onlara qarşı təşkil olunan aksiyalar zamanı qarşıdurmalar baş verib. İrqi ayrı-seçkiliyə qarşı çıxan etirazçılar "Nifrət yox, qorxu yox, qaçqınlar buraya xoş gəlib" şüarları, onlara qarşı çıxan qrup isə bunun əksinə şüarlar səsləndiriblər. Miqrantların hotellərdə yerləşdirilməsinə qarşı keçirilən etiraz aksiyaları, eyni zamanda Liverpul, Nyukasl, Pert, Ekseter, Tamvort və digər şəhərlərdə də təşkil olunub. Demək olar ki, bütün bölgələrdə əks-etiraz aksiyaları da planlaşdırılıb. Rəsmi Londonun qeyri-qanuni miqrasiya təşkilatçılarına qarşı dünyada ilk dəfə sanksiya rejimi tətbiq etməsi də etirazlar sırasındadır. Son həftələrdə yüzlərlə ultrasağçı sığınacaq axtaranların yerləşdirildiyi hotel və yataqxanaların yanında toplaşaraq, onların bağlanmasını və miqrantların kütləvi deportasiyasını tələb edirlər. Bunlar keçən yay baş verən hadisələri təkrarlayır. O zaman psixi pozuntuları olan 17 yaşlı Britaniya vətəndaşı Aksel Rudakubana tərəfindən üç uşağın öldürülməsindən sonra Sautportda (İngiltərə) iğtişaşlar baş vermişdi.

### MİQRANTLAR HESABINA ƏHALİ ARTIMI

Keçən il Britaniya əhalisinin tamamilə miqrasiya hesabına rekord səviyyədə - 700 000 nəfər artması da müzakirələrə səbəb olub. Leyboristlərdən olan daxili işlər naziri İvett Kuperi bunu "torilərin mirası" adlandırıb. "Mühafizəkarlar dövründə aşağı ixtisaslı miqrasiya sıçradı, britaniyalılar arasında məşğulluq isə çökdü", - deyə o bildirib.




Antimiqrant etirazları fonunda ABŞ Prezidenti Donald Tramp Britaniyaya səfəri zamanı xəbərdarlıq etmişdi: "Əgər özünüzə gəlməsəniz, Avropa artıq olmayacaq. Avropaya bu dəhşətli müdaxiləni dayandırın".

Mediaya sızan məlumata görə, baş nazirin müavini Ancela Reyner miqrantların pensiya və müavinətlərə çıxışını məhdudlaşdırmağı və onlar üçün Milli Səhiyyə Sistemindən istifadə haqqını artırmağı təklif edib. Baş nazir Starmerin mətbuat katibi bunu etirazlarla əlaqələndirib.

### LEYBORİSTLƏRİN DƏ MÖVQEYİ DƏYİŞİR

Əvvəllər mühafizəkarları sərt miqrant qanunlarına görə tənqid edən Kir Starmer birdən-birə miqrantlara münasibətdə siyasəti sərtləşdirmə kursu aparmağa başlayıb. Müşahidəçilər hesab edir ki, Britaniyada antimiqrant əhval-ruhiyyəsinin artmasının üç əsas səbəb var. Bunlar Dumanlı Albiona gələn miqrantların sayında nəzarətsiz artım, ingilis elitasının miqrasiya siyasətini tənqid etməyə yönəlmiş və nəticədə mövzunun daha da təbliğində maraqlı olan siyasi oyunçuların olması, Britaniya hökumətinin təsirli həll yollarının olmamasıdır.

## DÜNYA MEDİASININ BAXIŞI

Böyük Britaniyada miqrasiya əleyhdarları və tərəfdarları arasında toqquşmalar dünya mediasında əsas müzakirə mövzularından birinə çevrilib. Şərhçilər etirazların nəyə gətirib çıxara biləcəyini və bunun Avropa miqrasiya siyasətinə necə təsir edəcəyini anlamağa çalışırlar. "Arab News" yazır ki, etiraz dalğası İngiltərənin cənub-şərqində, Eppingdəki bir oteldə, sakinlərdən birinə 14 yaşlı qıza qarşı cinsi zorakılıq ittihamı irəli sürüldükdən sonra başlayıb. Son rəsmi məlumatlara görə, Britaniya hotellərində müvəqqəti olaraq 32 345 sığınacaq axtaran yaşayır.

"The Wall Street Journal" isə vurğulayıb ki, Avropa miqrant axınını dayandırmaq yollarını axtarır. Starmerin Leyborist hökuməti sələfi olan mühafizəkarların Böyük Britaniyaya qeyri-qanuni gələn insanları Ruandaya deportasiya etmək planından imtina etdi. Lakin bu yay bəzi Britaniya şəhərlərində baş verən antimiqrant iğtişaşları hökuməti miqrant axınını nəzarət altında saxlaya bildiyini nümayiş etdirməyə məcbur etdi.

Miqrantların sayı artdıqca, miqrasiyanın iqtisadi təsiri barədə müzakirələr kəskinləşir. İqtisadçılar iddia edirlər ki, immiqrantlar əmək bazarındakı boşluqları doldura və iqtisadi artımı stimullaşdıra bilərlər.

### BRİTANİYALILAR HÖKUMƏTDƏN NARAZIDIR

Britaniyalıların 70 faizdən çoxu hesab edir ki, Kir Starmerin rəhbərlik etdiyi hökumət qeyri-qanuni miqrantların hotellərdə yerləşdirilməsi ilə bağlı yaranmış böhranın həllində zəif iş görür. Bunu "YouGov"un avqustun 20-21-də keçirdiyi ictimai rəy sorğusunun nəticələri sübut edir. Sorğuda iştirak edən 2,15 min nəfərin 71 faizi hazırkı hakimiyyət orqanlarının bu sahədə mövcud vəziyyətin həlli istiqamətində zəif iş gördüyü qənaətində olduğunu bildirib. Respondentlərin 11 faizi əks fikirdədir və yalnız 9 faizi hesab edir ki, hakim Leyboristlər Partiyası qeyri-qanuni miqrasiya probleminin öhdəsindən ən yaxşı şəkildə gələ bilər. Britaniyalıların çoxu - 31 faizi hesab edir ki, sağçı populist "Reform UK" partiyası bu sahədə mövcud vəziyyəti effektiv şəkildə düzəltməyə qadirdir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# İDXALDAN QAYNAQLANAN BAHALAŞMA

İnflyasiya proqnozunun artırılmasının başlıca səbəbi kimi xarici amillər göstərilir. Ekspertlər bu il ərzində qəbul olunan bəzi qərarları da inflyasiyanın artmasında tətikləyici səbəb kimi görürlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Azərbaycanın bu il üçün inflyasiya proqnozu artırılıb. Belə ki, 2025-ci ildə orta illik inflyasiya üzrə ilkin proqnoz 4,6 faiz səviyyəsində nəzərdə tutulsa da, cari ilin avqust ayında təqdim edilmiş proqnoza əsasən, inflyasiya 5,4 faiz səviyyəsində gözlənilir. Xatırladaq ki, Mərkəzi Bankın iyul proqnozlarına görə ölkədə illik inflyasiyanın 2025-ci ildə 5,7 faiz, 2026-cı ildə isə 5,3 faiz olacağı proqnozlaşdırılır. Bəs inflyasiya proqnozunun artırılmasına təsir edən amillər hansılardır?

### "ƏSAS SƏBƏB XARİCİ TƏSİRLƏRDİR"

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun sözlərinə görə, proqnozun artırılmasının əsas səbəblərindən biri idxal inflyasiyasıdır: "Xüsusən də region bazarlarında müşahidə edilən qiymət artımları və Azərbaycana idxal edilən məhsullar üzrə qeydə alınan inflyasiya proqnoza yenidən baxılmasını zəruri edib. Əsas səbəb xarici təsirlərdir. Xarici amillər içərisində daha çox logistika və idxal edilən məhsulların qiymətləri əsas səbəblərdəndir. Çünki qlobal enerji bazarında stabillik var. Hətta qiymətlər proqnozlaşdırılandan daha aşağıdır. Ona görə də enerji məhsullarının qiymətlərindəki dəyişikliklər praktik olaraq inflyasiya səviyyəsinə indiki halda təsir göstərməyib".

### "DAXİLİ AMİLLƏRİ DƏ NƏZƏRƏ ALMALIYIQ"

V.Bayramovun fikrincə, daxili amilləri də nəzərə almalıyıq: "Çünki büdcə xərclərinin artması nəticə etibarilə tələb yaradır. Tələb yaratdığı üçün də qiymət artımlarına səbəb olur. Digər tərəfdən nəzərə alaq ki, 2025-ci ildə əməkhaqqı, pensiya, sosial müavinətlərdə də artımlar qeydə alındı. Bu da istehlak bazarında tələbə təsir göstərdi. Daxili amillər içərisində tələbin artması, xüsusən də istehlaka yönəldilən vəsaitin həcminin yüksəlməsidir. Çünki biz inflyasiyaya diqqət yetirsək görərik ki, burada tariflərin təsirləri elə də yüksək deyil. Amma istehlak və büdcə xərclərindəki artımlar inflyasiya proqnozuna təsir göstərir".

Millət vəkili bildirdi ki, bütün hallarda proqnozun artırılmasına baxmayaraq, inflyasiya ilə bağlı proqnoz birrəqəmlidir. Birrəqəmli olduğu üçün iqtisadiyyat üçün ciddi risklər formalaşdırmır: "Qiymətlərin aşağı olması vətəndaşların xərcləri baxımından vacibdir. Ailə büdcəsi aspektindən inflyasiya səviyyəsi aşağı olmalıdır. Amma nəzərə almaq lazımdır ki, əsas hədəf inflyasiyanı proqnozlaşdırılan səviyyədə saxlamaqdır. Bunun üçün idxaldan asılılığın azaldılması vacibdir. Çünki idxal inflyasiyası əsas faktordur. 2025-ci ildə təxminən altı faizə yaxın qiymət artımları proqnozlaşdırılır. 2026-cı ildə 5,3 faiz proqnoz edilir. Növbəti ildə də inflyasiya proqnozu 5-6 faiz intervalında dəyişəcək".

### DÜNYADA BAŞ VERƏN PROSESLƏRİN TƏSİRİ

"İqtisadi və Sosial Araşdırmalara Yardım" İctimai Birliyinin sədri Eyyub Kərimli isə düşünür ki, rəqəmlərin dəyişməsinə səbəb dünyada baş verən proseslərdir: "Keçən il proqnoz 4,6 faiz nəzərdə tutulmuşdu. İndi isə yüksəlib. Proqnoz ilə real göstəricilər fərqlənə bilər. Bunun da səbəbi bəzi xidmət tariflərinin artması, qlobal bazarlarda müəyyən logistika kanallarının və məhsulların qiymətində artım baş verməsidir. Bəzi ölkələrdə ixraca məhdudiyyətlər qoyulub ki, bura ət, taxıl məhsulları daxildir. Rusiya-Ukrayna müharibəsi hələ də davam edir. Digər ölkələr arasında münaqişələr olması da məsələyə öz təsirini göstərdi".


Vüqar Bayramov
Xalid Kərimli
Foto: Firudin Səlimov/Global Photostock

## İnflyasiyanı azaltmağın yolları

E.Kərimli inflyasiyanı azaltmağın yollarından da bəhs etdi: "Daxili amillərə gəldikdə, tənzimlənən tariflərin, tələbatın artması baş verdi ki, bu da inflyasiyanı tətikləyən hallardan biridir. Əhalinin gəlirləri ilin əvvəlində artırıldı. Əsasən də təqaüdlərdə, sosial müavinətlərdə artım baş verdi. İnvestisiya qoyuluşu da inflyasiyaya təsir edir. İnflyasiyanın azaldılması ilə bağlı müəyyən tədbirlər həyata keçirilməlidir. Öncə idxaldan asılılığın azaldılması gələcək riskləri minimuma endirəcək. Həm də ərzaq məhsullarının böyük hissəsi idxaldır. Kənd təsərrüfatı və qeyri-neft sektorunu inkişaf etdirməliyik. İnflyasiyanın artımı əhalinin gəlirlərinə mənfi təsir göstərir. Çünki bu hər 100 manata bir manat itki deməkdir. Bütün bunlar gələcək riskləri də artırır və əhalinin büdcəsinə mənfi təsir göstərə bilər. İnflyasiyanın 2026-cı ildən sabitləşmə ehtimalı var. Amma bu proqnoz tam reallığı əks etdirməyə də bilər".

### "İDXALDAN ASILILIĞI TAM AZALDA BİLMƏYƏCƏYİK"

İqtisadçı Xalid Kərimlinin sözlərinə görə, dəyişimin səbəblərindən biri yanvar ayından kommunal xidmətlərin bahalaşmasıdır: "İkinci məqam bu ilin əvvəlindən başlayaraq dolların digər valyutalar qarşısında dəyər itirməsidir. Bu da idxalın bahalaşmasına səbəb oldu. İnflyasiyanın əsas səbəbi idxaldır. Daxili proseslərdən Tarif Şurasının və hökumətin qərarları inflyasiyaya təsir edir".

X.Kərimlinin fikrincə, inflyasiya əhalinin aşağı təbəqəsinin gəlirini daha da azaldır: "İdxaldan asılılığı tam azalda bilməyəcəyik. Çünki özümüzü hər şeylə təmin etmək üçün resursumuz çatmır. İnflyasiyanın çox sürətli olması yaxşı deyil. Çünki inflyasiya əhalinin qazancını azaldır. Ərzaq inflyasiyası yeddi faiz üzərindədir. Əhalinin çoxu məhz qidaya pul xərcləyir. İnflyasiya bu təbəqənin gəlirini daha da aşağı salır".

# BÜTÜN MƏZUNLARI TƏLƏBƏ OLAN KƏND MƏKTƏBİ

Zərdab rayonunun Şirvani adına İsaqbağı kənd tam orta məktəbinin bütün məzunları tələbə adını qazanıblar. Məktəbin direktoru Dayangül Vəliyeva deyir ki, bu nəticə aparılan sistemli iş sayəsində əldə edilib.






AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bu il keçirilən qəbul imtahanlarında Zərdab rayonunun Şirvani adına İsaqbağı kənd tam orta məktəbinin bütün məzunları tələbə adını qazanıblar. Yüksək nəticəsi ilə fərqlənən məktəbin direktoru Dayangül Vəliyeva ilə söhbətləşdik.

Dayangül müəllim bildirdi ki, hər bir şagirdi ilə qürur duyur: “11 ildir ki, bu məktəbdə direktor vəzifəsində çalışıram. Bundan əvvəl məktəbdə heç vaxt 600 bal toplayan şagird olmamışdı. Amma son illərdə hətta elə olub ki, bütün rayon üzrə yalnız bir nəfər bu nəticəni göstərib və o da bizim məktəbin məzunu olub. Bu, mənim üçün böyük qürurdur”.

Direktor bildirir ki, bu nəticələrin arxasında yalnız təhsil yox, həm də şagirdlərlə qurulan dostluq və güvənə əsaslanan münasibət dayanır: “Şagirdlərimi müəllim olduğum dövrdə də heç vaxt qorxu ilə idarə etməyə çalışmamışam. Mənim üçün vacib olan onların mənə qorxaraq deyil, sevgi ilə yaxınlaşmağı olub. Ərköyünlə ərköyün, ağıllı ilə ağıllı, dəlisov ilə dəlisov olmuşam. Hətta olub ki, şagirdlər bir yerdə hazırlıqları ilə bağlı müzakirələr aparmaq üçün otaq istəyiblər, öz otağımı onlara vermişəm. Deyirdim ki, probleminiz olarsa, mənimlə bölüşün, həll edək. Məktəb daxilində, sakitcə həll etdiyimiz məsələlər də olub. Heç bir şagirdimi balamdan ayırmamışam. Ona görə də bu gün balalarımın uğuruna sevinirəm”.

### “KƏNDDƏ QIZLARIN TƏHSİLƏ MARAĞI YÜKSƏKDİR”

Bəzi bölgələrdə, xüsusilə də, ucqar kəndlərdə qızların təhsildən yayınması ilə bağlı hallar müşahidə olunur. İsaqbağı kəndində ali məktəbə qəbul olan on şagirdin altısının qız olması direktoru xüsusilə sevindirir. Deyir ki, bu kənddə qızların təhsilə marağı yüksəkdir: “Bizim kənddə qızların təhsildən yayınması halları demək olar ki, yoxdur. Bu, məktəb kollektivinin və valideynlərin birgə əməyi nəticəsində mümkün olur. Valideynlər şagirdlərin, xüsusilə də qızların təhsilinə böyük önəm verirlər. Məsələn, sonuncu dəfə 11-ci sinif şagirdinin nişanlanmaq niyyəti barədə məlumat aldıq. Valideynlərini məktəbə dəvət etdik, vəziyyəti ətraflı müzakirə etdik. Qeyd etdik ki, qız uşaqları üçün təhsil mütləqdir və onların gələcəyi üçün bu, ən vacib amillərdən biridir. Ailə ilə aparılan maarifləndirici söhbətlər nəticə verdi və valideynlər qərarlarını dəyişdilər. Yəni bu sahədə əldə olunan nəticələr təkcə məktəb rəhbərliyinin deyil, eyni zamanda valideynlərin də anlayışlı və məsuliyyətli yanaşmasının göstəricisidir. Qız valideynləri övladlarının təhsilli olması üçün əllərindən gələni edirlər”.

### SİNİFDƏ YARADILAN SAĞLAM ATMOSFER

Direktor bildirir ki, bu, həmin sinfin ilk uğuru deyil: “Builki məzunlarımızdan olan Qismət o sinifdə zəif oxuyan şagirdlərdən biri idi. Amma sinifdəki digər doqquz şagird onu heç vaxt kənarda qoymadı. Tənəffüsdə belə tək buraxmırdılar. Biri onu aparıb testlərlə məşğul olurdu, digəri tapşırıqlara kömək edirdi. Elə bir mühit yaratmışdılar ki, Qismət də təhsilə daha ciddi yanaşmağa başladı. Doqquzuncu sinif də daxil olmaqla, əvvəlki illərdə demək olar ki, nəticəsi zəif idi. Amma 10-11-ci sinifdə sinif yoldaşlarının dəstəyi ilə dəyişdi, əzmlə çalışdı və nəticədə ali məktəbə qəbul olmağı bacardı. Bu hadisə mənim üçün çox dəyərlidir, çünki burada kollektivin gücü, sinifdə yaradılan sağlam atmosferin necə möcüzələr yarada biləcəyi açıq şəkildə görünür”. Direktor vurğulayır ki, nəticələr açıqlananda gec saatlara qədər valideynlərlə, şagirdlərlə danışıb, onların sevinclərinə şərik olub: “Nəticələr açıqlanan kimi gecə saatlarında hər biri ilə tək-tək əlaqə saxladım. Kimisi ilə zənglə, kimisi ilə “WhatsApp” üzərindən danışdıq. Hamısını ürəkdən təbrik etdim”.

## Sağlam əlaqə, qarşılıqlı anlaşma



“İsaqbağı kənd məktəbinin uğurunun kökündə nə dayanır” sualına gəldikdə isə, müsahibimiz bildirir ki, valideyn, məktəb, müəllim üçbucağı düzgün qurulub: “Əgər bu üç tərəf arasında sağlam əlaqə və qarşılıqlı anlaşma varsa, nəticə mütləq olacaq. Təəssüf ki, bəzən valideynlər məktəblə əlaqə saxlamaq istəmir, məsuliyyətdən yayınırlar. Mən bir müəllim, direktor kimi əlimdən gələn hər şeyi edə bilərəm. Amma əgər valideyn bu prosesdə mənə dəstək olmursa, bu zaman uğurlu nəticə əldə etmək çətinləşir. İkinci növbədə sevgi və hörmətdir. Şagirdlər arasında elələri var ki, müəyyən mövzularda valideynləri ilə paylaşmadıqlarını bizimlə bölüşürlər. Bu isə o deməkdir ki, məktəbdə onlara etibar edə biləcəkləri mühit formalaşıb”.

## “Pis və ya yola gəlməyən şagird yoxdur”

Məktəb direktoru vurğulayır ki, məqsədləri təkcə yüksək bal deyil, həm də sağlam düşüncəli və cəmiyyətə faydalı gənclər yetişdirməkdir: “Bizim təcrübəmiz göstərir ki, əslində pis və ya yola gəlməyən şagird yoxdur. Sadəcə, hər bir şagirdin fərdi yanaşmaya ehtiyacı var. Əgər müəllim əsl pedaqoqdursa, hər bir şagirdin xarakterini, davranış modelini və qavrama səviyyəsini tanımalı, ona uyğun yanaşma nümayiş etdirməlidir”.

Dayangül müəllim onları universitet həyatında da dəstəkləyir. Deyir ki, işləri onların məzun olması ilə bitmir: “Kənd məktəbində hamı bir-birini tanıyır, kömək etməyə çalışır. Uşaqlar da bir-birilərinə dəstək olurlar. Hamımız əlbir olub onları tələbəlik həyatında da məktəb heyəti olaraq dəstəkləyirik”.

BU İL XALQ ARTİSTİ VİDADİ ƏLİYEVLƏ ÖMÜR-GÜN YOLDAŞI, XALQ ARTİSTİ ELMİRA İSMAYILOVANIN 80 YAŞI TAMAM OLUR

# “MAAŞ OLMADAN DA İŞLƏMƏYƏ RAZI İDİM”

SÖHBƏTLƏŞDİ
TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

**Vidadi Əliyev:** “Əlbəttə, ürəyimiz teatrda qaldı. Biz o teatrın bütün yükünü çiynimizdə daşımışıq. Ermənilərin içərisində o teatrı hansı əziyyətlə yaşatmışıq, tanıtmışıq”.

**Elmira İsmayılova:** “65 yaşdan sonra təqaüdə çıxma qaydası incəsənət işçilərinə aid olmamalıdır. Bəs kinoda, teatrda yaşlı rolları kim oynasın? Mən yaşda olan adamın rolunu 25 yaşda aktrisa necə oynaya bilər?”

Hər ikisi böyük fədakarlıqla İrəvanda Azərbaycan teatrını yaşadıblar. 1967-ci ildən 1988-ci ilə qədər Qərbi Azərbaycanın rəmzi olan teatrın adını qoruyub, təbliğ ediblər. Teatrın fəaliyyəti Bakıda bərpa olunandan sonra qaçqınlıqda yaşayan Qərbi azərbaycanlıların dərdini, problemini əks etdirən tamaşalarla çıxış edib. Ömürlərinin 45 ilindən çoxunu bu teatrın yaşamasına həsr ediblər.

Xalq artisti Vidadi Əliyevlə ömür-gün yoldaşı, Xalq artisti Elmira İsmayılovanın bu il 80 yaşı tamam olur (1 sentyabr Vidadi Əliyevin, 13 noyabr Elmira İsmayılovanın 80 illik yubileyidir).

İndi onlarla söhbət etmək o qədər də asan deyil. İki ildən çoxdur ki, mətbuatla ünsiyyət qurmurlar. Hətta sırf yaradıcı mövzularda müsahibədən də imtina edirlər. Sevimli övladları Oqtayın faciəli ölümündən sonra özlərinə çəkiliblər.

Qocaman aktyorlar nəhayət, bu sükutu pozdular. 80 illik yubileyləri ərəfəsində ömürlərini həsr etdikləri İrəvan Dövlət Azərbaycan Dram Teatrından, sevimli övladlarını əllərindən alan faciədən, xatirələrdən, qarşılaşdıqları haqsızlıqlardan danışdılar.

## “ÜRƏYİMİZ TEATRDA QALDI”

● **Təxminən 10-15 il əvvəl sizin hər ikinizlə ayrı-ayrılıqda görüşüb müsahibə hazırlamışam. Əlbəttə, o vaxtdan çox sular axıb, çox şeylər dəyişib. Hər ikiniz ömrünüzü İrəvan Teatrının qurulmasına, yaşamasına həsr eləmisiniz - bu tarix isə dəyişməyib. Sonuncu dəfə teatrın səhnəsinə nə vaxt çıxmısınız?**

● **Vidadi Əliyev:** 2016-cı ildə. Demək olar ki, hər ikimiz eyni vaxtda tamaşada oynadıq.

● **Elmira İsmayılova:** Yaşla əlaqədar işləyə bilməzdik. Dedilər ki, 65 yaşdan sonra təqaüdə çıxmalısınız...

● **Demək olar ki, ürəyiniz teatrda qaldı?**

● **Vidadi Əliyev**: Əlbəttə, ürəyimiz teatrda qaldı. Biz o teatrın bütün yükünü çiynimizdə daşımışıq. Ermənilərin içərisində o teatrı hansı əziyyətlə yaşatmışıq, tanıtmışıq. Təkcə aktyor və yaradıcı adam olmamışıq, hər işi özümüz görmüşük ki, teatr yaşasın. İrəvandan Bakıya gələndən sonra çətinliklər ikiqat artdı. Nə dövlət pul verirdi, nə yer, nə pal-paltar vardı. Özümüzlə heç nə gətirə bilməmişdik. Adamın vicdanı götürmürdü ki, əzab-əziyyətlə orada yaşatdığın teatr burada məhv olsun.

> “Oqtay mənə həm qardaş idi, həm ata idi, bir sözlə, həmdərd idi. Nə sözüm olsa onunla bölüşürdüm. Mən onsuz yaşaya bilmirəm.”

● **Bəs İrəvan Teatrının indiki vəziyyəti necədir?**

● **Vidadi Əliyev:** Teatr yenə işləyir, qastrollara gedir. Rəsulzadə qəsəbəsində teatr üçün bina da tikilib, amma hansısa səbəbdən açılışı baş tutmur. Teatr binasının qapısı bağlıdır. Artıq 3 ildir ki, vəziyyət belədir.

● **Elmira İsmayılova:** Aktyorlar Binəqədi Mədəniyyət Evində hazırlaşırlar.

## “BİZ DEMƏK OLAR Kİ, HEÇ TƏRƏF-MÜQABİL OLMAMIŞIQ”

● **Uzun illər bir yerdə işləmək, birgə səhnəyə çıxmaq təəssüratlarınız necədir?**

● **Elmira İsmayılova:** Biz demək olar ki, heç tərəf-müqabil olmamışıq. Anarın “Şəhərin yay günləri”ndə Vidadi Qiyas rolunu, mən də Dilarəni oynayırdım. Sonra bir-iki tamaşada da rollarımız oldu. Amma başqa tamaşalarda birgə oynamamışıq. Birgə işləməyimizin mənfi tərəfləri də vardı: sənət adamı kimi evdə qayğılarımız kənarda qalırdı, teatrın söhbətini edirdik. Sənət mübahisələrimiz olurdu. Ayrı yerlərdə işləsəydik, işin söhbəti də evə gəlməzdi. Bir yerdə işləməyin çətinliyi də budur. Hətta uşaqlar da teatrda böyüdülər. Onlar da gəlib söhbətə qarışırdılar. Elçin 4 yaşı olanda “Atayevlər ailəsi”nə gəldi. Vidadi prokuror rolunu oynayırdı. Bir də eşitdik ki, Elçin gecə gəlib yatan yerdə Vidadiyə deyir ki, o, sənə belə deyəndə sən onun yaxasından tut silkələ. Bizim uşaqlar o mühitdə böyüyürdülər.

● **Təbii, övladlarınızın hər ikisinin televiziyanı seçməsi, sənətə meyli də bu mühitdən qaynaqlanıb...**

● **Elmira İsmayılova:** Oqtayın Tibb İnstitutuna daxil olmaq üçün böyük şansı vardı. Dərslərini yaxşı oxumuşdu. Vidadinin xalası oğlu Kemerovada yaşayırdı və şəhərin səhiyyə rəhbəri onun qonşusu idi. “Oqtay, gəl mənim yanıma, hansı fakültəni istəyirsən, burada oxuyarsan”, - deyə təklif etdi. Amma Oqtay “mən İncəsənət İnstitutunda oxuyacağam”, - dedi. Mən də “sənə Bakıya getməyə yol pulu verməyəcəyəm”, - deyə bildirdim. İstəyirdim ki, o, Tibb İnstitutunda oxusun. “Vermə, 10 manatım var, bilet alıb gedəcəyəm”, - deyə inadından dönmədi. O vaxt İrəvandan Bakıya qatarlar işləyirdi. Bilet alıb getdi. Bir də “tələbə biletimi alıb gəlirəm”, - deyə zəng etdi. Bizim Oqtayla Elçinin sənət seçiminə heç bir müdaxiləmiz olmayıb. Özləri nə istədilər, onu da seçdilər. Elçinin oxuduğu aspiranturanın yerini heç bilməmişəm. Doktorluq müdafiə edəndə getdim.





Fotolar: Tural Xəlil- Global Media Group



## “MƏN ONSUZ YAŞAYA BİLMİRƏM”

● **Yəqin ki, səhnədən ayrılmaq asan olmadı...**

● **Vidadi Əliyev:** Əlbəttə, asan olmadı. 46-47 il səhnədə oynayasan, birdən hər şeyi atıb əliboş dayanasan.

● **Elmira İsmayılova:** Təqaüd yaşı məsələsini ortaya atdılar. Mən teatrdan çıxandan sonra 5 il televiziyada işlədim. Bu, mənim üçün çox yaxşı oldu. Pandemiya başlayanda işlədiyim “5 gəlin” verilişi bağlandı. Bilsəydim, Bakıya gələndən sonra elə televiziyada çalışardım. Televiziyada işlədiyim vaxtlarda hansı qapını açırdımsa, hörmətlə qarşılayırdılar. 50 il teatrda işlədim, heç o qiyməti vermədilər. 65 yaşdan sonra təqaüdə çıxma qaydası incəsənət işçilərinə aid olmamalıdır. Bəs kinoda, teatrda yaşlı rolları kim oynasın? Mən yaşda olan adamın rolunu 25 yaşda aktrisa necə oynaya bilər? Mən nə danışığımı, nə ağlımı itirmişəm. Əlbəttə, 10 il əvvəl - səhnədən ayrılanda daha fərqli idim. Bütün rolları oynaya bilərdim. Dedilər ki, qoy cavanlara iş yeri olsun. Bəyəm teatrda verilən maaşla işləməyə cavanlar gedirlərmi? Hamı kinoya, seriala çəkilməyə qaçır.

● **Vidadi Əliyev:** Mən razı idim ki, maaş verməsinlər, amma işləyim. Vaxt olub, eyni zamanda 8-9 iş görmüşəm, heç birinin maaşını almamışam. Amma elə bir münasibət gördüm ki, o qədər sevdiyim teatrdan üzümü çevirdim...

● **İndi dəvət olsa, qəbul edərsiniz?**

● **Elmira İsmayılova:** Bir neçə dəfə dəvət olub. Heç yerə getmirəm. Heç verilişlərə də getmirəm. Gedə bilmirəm. Hətta qonaq gedə bilmirəm. Mən dərdimi kiminləsə paylaşmağa aparmaq istəmirəm. Heç cür çəkə bilmirəm. Oqtay mənim üçün tək oğul deyildi. Həm qardaş idi, həm ata idi, bir sözlə, həmdərd idi. Nə sözüm olsa onunla bölüşürdüm. Mən onsuz yaşaya bilmirəm (ağlayır). Həyatda bütün ümidini itirmək bilirsiniz necə ağırdır...

## “HƏYAT MƏNİM ÜÇÜN O GÜN SÖNDÜ”

● **Acınızın nə qədər dərin olduğunu başa düşürəm və təsəlli üçün söz tapa bilmirəm. Amma bu, həyatdır. Sizin başqa övladınız, nəvələriniz var...**

● **Elmira İsmayılova:** Elçin var, Dilarə var, nəvələr var. Bizi bircə gün də diqqətsiz qoymurlar. Amma hər kəsin öz yeri var. Həyat mənim üçün o gün söndü. Sonuncu dəfə martın 20-də buraya gəldi. Hər şey alıb gətirmişdi. “Xonça bəzə, şam yandırarsan”, - dedi. Çıxıb gedəndə “boyum da çatmır, əyil, üzündən öpüm”, - deyəndə “əsgər gedirəm?” - deyə zarafata saldı. “Sabah gələcəm”, - deyib getdi. Amma gəlmədi... Balaca bir əl telefonum vardı. Oqtay həmişə o telefona zəng edirdi. O hadisədən sonra üç gün həmin telefon işləmədi. Ustaya apardılar. “Bu, düzəlməyəcək”, - dedi. Üç gündən sonra telefon öz-özünə açıldı, möcüzə oldu. İnanın, indi gözümdə heç nə yoxdur. Elə bil hər şey yuxu idi...

● **Zaman bütün yaralara məlhəm olur...**

● **Elmira İsmayılova:** Zaman heç nəyi sağaltmır. Keçib gedir, heç nə edə bilmirsən. Mən onda hiss etdim ki, insan nə qədər çarəsiz olarmış. Sapsağlam adam bir dəqiqənin içində yox oldu. Dilarə deyir, danışıb gülürdük. Birdən Oqtaydan səs gəlmədi, çağırdım, hay vermədi. Nə ürəyində, nə başqa orqanında problem olub. Ekspertiza da “nə olubsa, Allahla öz arasında olub”, - deyib. Yazısı ora qədərmiş...

## “47 İL İŞLƏMİŞƏM, HEÇ VAXT QRİM OTAĞI GÖRMƏMİŞƏM”

● **Sizin teatrın tarixində xidmətləriniz var. Arxivlərdə, fondlarda, yaddaşlarda, ürəklərdə rollarınız, tamaşalarınız qalıb...**

● **Elmira İsmayılova:** Şəkillər qaldı... O vaxt tamaşanı lentə alıb saxlamaq imkanı yox idi. Teatr Cəmiyyətindən gəlib şəkillər çəkirdilər. Yalnız şəkillərdə qaldı hər şey...

● **Necə bilirsiniz, ən yaxşı rolunuz artıq oynanılıb?**

● **Vidadi Əliyev:** Yox...

● **Elmira İsmayılova:** Mən istədiyim rolları oynamışam. Nə arzulayırdımsa, oynamışam. Teatr yaxşı əsərlər götürüb, mən də hamısında ürəyim istəyən rollarda səhnəyə çıxmışam. Ürəyimdə qalan heç nə olmayıb. Hər il dörd təzə tamaşa hazırlanırdı. Mən hamısında var idim. Hələ “əsər oxunanda ən yaxşı rol bunundur”, - deyə mübahisələr düşürdü. Hər il 180-200 tamaşanı İrəvan yaxınlığındakı ayrı-ayrı kəndlərdə, Azərbaycanın rayonlarında oynayırdıq. Qastrollara görə heç yerə getmək imkanımız da yox idi. Bütün günlərimizi teatra həsr edirdik, başqa cür mümkün deyildi.

● **Vidadi Əliyev:** Mən sevdiyim işlə məşğul olmuşam. Əzab, zülm olub, amma işimi sevmişəm. Təsəvvür edin, 47 il işləmişəm, heç vaxt qrim otağı görməmişəm. Bunun nə demək olduğunu təsəvvür edirsiniz? Elə o küncdə-bu küncdə, pəncərə ağzında, pərdə arxasında qrim etmişik... O şərait olmadı, indi də yoxdur... Hətta qapını açıb içəri girməyə icazə yoxdur.

● **Elə bir qaynar dövrdən sonra belə susqun bir dövr...**

● **Elmira İsmayılova:** Oqtayın başına gələn faciə olmasaydı... Mən qaynar adamam, yenə susqunluq olmayacaqdı. Ən azı, ekspert kimi verilişlərə gedirdim.

● **Vidadi Əliyev:** Mən indi də kinoya dəvət alıram. Odur, rejissor stolun üstünə ssenarini gətirib qoyub. Çəkilişlər Şamaxıda olacaq. Deyirəm ki, mənim səhhətimə uyğun deyil, əvvəlki əhvalda da deyiləm. Yəni dəvətlər yenə də var...

● **Teatrdan uzaqlaşdığınız bu müddətdə sizinlə heç maraqlanan olmayıb? Əlaqədar qurumları nəzərdə tuturam...**

● **Elmira İsmayılova:** Yox, niyə maraqlansınlar? Nəylərinə lazımdır? Onlara lazım olmayanlara ögey baxırlar.

● **Vidadi Əliyev:** Həyətdə qonşular da bizə fəaliyyətimizə görə təqaüdün, mükafatın verilib-verilməməsi ilə bağlı soruşurlar. Deyirəm ki, hər adama vermirlər ki... Uzun illər teatrda, kinoda can qoyduq, təəssüf ki, axırda da belə münasibət görürük...

# Necə tələb olunan qalmaq olar?

Əmək bazarı sürətlə dəyişir və buna paralel olaraq, işin mahiyyəti də dəyişir. Artıq bu prosesləri dayandırmaq da mümkün deyil.



Bakıda keçirilən "Gələcək karyeralar: necə aktual, hazır və tələb olunan qalmaq olar" mövzusunda panel müzakirə təşkil olunub.

Panel müzakirədə çıxış edən Azərbaycanın İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev bildirib ki, emosional intellekt müasir peşələrdə uğurun əsas amillərindən birinə çevrilir. Onun sözlərinə görə, emosiyaları idarə etmək bacarığı təkcə peşəkar fəaliyyətdə deyil, həm də gündəlik və ailə həyatında da vacibdir. Məhz bu bacarıq həqiqətən də böyük nəticələr əldə etməyə kömək edir.

**"SOFT SKİLLS" BACARIQLARI**

O, həmçinin "soft skills" adlanan bacarıqların vacibliyinə diqqət çəkib: "İnsan mükəmməl təhsil alsa və bir neçə dilə yiyələnsə belə, bu, kifayət etməyə bilər. Ünsiyyət qurmağı və danışıqlar aparmağı bacarmaq lazımdır. Öz təcrübəmə əsaslanaraq deyə bilərəm ki, emosiyalar hər şeyi həll edir. Əgər siz öz emosiyalarınızı idarə edə bilirsinizsə, qalan hər şeyi də idarə edə bilərsiniz".

Y.Abdullayev bildirib ki, Azərbaycanın ilk Beynəlxalq İnvestisiya Forumu sentyabrın 22-23-də Bakıda keçiriləcək. "Biz forumu "Formula-1" Azərbaycan Qran-Prisindən dərhal sonra keçirməyi qərara aldıq, çünki tamamilə unikal mövqedəyik. Tədbir İtaliyadakı tərəfdaşımız "The European House - Ambrosetti" ilə birgə "Euronews"un dəstəyi və "Bloomberg"dən dəvət olunmuş qonaqların iştirakı ilə təşkil olunacaq", - o qeyd edib.

**"BU DİLLƏR TƏLƏB OLUNUR"**

Y.Abdullayev əlavə edib ki, rus dili regionda əsas biznes ünsiyyət vasitələrindən biri olaraq qalır, lakin ingilis dili ilə yanaşı, çin, fransız və alman dilləri də getdikcə populyarlıq qazanır: "Bu dillər tələb olunur. Çünki Çin investisiya sahəsində böyük ümidlər bəslədiyimiz əsas tərəfdaşlardan biridir. Eyni zamanda, logistika ingilisdilli dünya üçün, o cümlədən "Tramp yolu" adlanan istiqamət üzrə yeni imkanlar açır. Biz Avropa və ABŞ tərəfindən artan marağı müşahidə edirik. ABŞ, şübhəsiz ki, gələcəkdə əsas tərəfdaşlarımızdan birinə çevrilə bilər".

## Əmək bazarı sürətlə dəyişir

bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli qeyd edib ki, əmək bazarı sürətlə dəyişir və işin mahiyyəti də dəyişir. Bu prosesləri artıq dayandırmaq mümkün deyil. Onun sözlərinə görə, dəyişikliklər həmişə cəmiyyəti müşayiət edib, lakin bu gün onların tempi misli görünməmiş olub. "İndi dəyişikliklər keçmiş dövrlərlə müqayisədə daha sürətlə baş verir. Bundan əlavə, bir nəslin həyatı ərzində biz oyun qaydalarını dəyişən iki-üç böyük transformasiyanın şahidi ola bilərik. Bu, şübhəsiz ki, əmək bazarına təsir edir. Bu təhlükədirmi? Kimsə diplomatik şəkildə deyəcək: yox. Mən isə birbaşa deyəcəm: bəli, bu təhlükədir", - bp-nin vitse-prezidenti bildirib.

B.Aslanbəyli baş verən proseslərin yeni perspektivlər açdığını da vurğulayıb: "Hər şey dəyişiklikləri necə qəbul etməyinizdən asılıdır - təhlükə kimi, yoxsa imkan kimi. Əgər onlara şans kimi baxsanız, əhəmiyyətli fayda əldə edə bilərsiniz. Müsbət tərəfi odur ki, transformasiya olunan əmək bazarı həmişə ilhamlandıra biləcək yeni bir şey təklif edir". O, xüsusi diqqəti növbəti 30-40 il əmək bazarında olacaq gənclərə yönəldib.

# SOCAR BEYNƏLXALQ UĞURA İMZA ATIB




Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) insan kapitalının inkişafı sahəsində nüfuzlu "Brandon Hall Group" "Human Capital Management Excellence" mükafatının qalibləri sırasında yer alıb.

"Report" SOCAR-a istinadən xəbər verir ki, 2025-ci ilin əvvəlində SOCAR-ın Baş Ofisinin İnsan Kapitalı və İnklüzivlik (İKİ) seqmenti tərəfindən həyata keçirilən bir sıra layihə və proqramlar "Brandon Hall Group" tərəfindən elan edilmiş müxtəlif kateqoriyalar üzrə dörd müxtəlif kateqoriyada yüksək nəticə göstərib. Belə ki, SOCAR "Enerji Liderləri", "Performans mədəniyyətinin aşılanması" layihələri və "Gənc İstedadlar" proqramı üzrə qızıl medallar, "HR AI chat-bot" layihəsi üzrə isə gümüş mükafat qazanıb.

Qeyd edək ki, "Brandon Hall Group" 30 ildən artıqdır ki, biznes, idarəetmə və insan kapitalının inkişafı sahələrində qabaqcıl şirkətlərin uğurlarını dəyərləndirir. Bu mükafatlar tətbiq edilən proqramların əməkdaşlara və şirkətlərə ölçülə bilən dəyər qazandırmaq bacarığına görə təqdim olunur.









# "Global Media Group"un ƏMƏKDAŞLARI TƏLTİF EDİLİB

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə "Global Media Group"a daxil olan "Report" İnformasiya Agentliyi, Oxu.Az informasiya portalı, PhotoStock.az və Baku TV-nin bir qrup əməkdaşı təltif olunublar.

Bir qrup jurnalist ordu quruculuğu sahəsində aparılan uğurlu islahatların ictimaiyyətə çatdırılması, hərbi-vətənpərvərliyin təbliği və dezinformasiyalara qarşı mübarizədə Müdafiə Nazirliyi ilə birgə əməkdaşlıqlarına görə döş nişanı və fəxri fərmanla mükafatlandırılıblar. Təltifləri nazirliyin Şəxsi Heyət Baş İdarəsinin rəisi, general-mayor Müşfiq Məmmədov təqdim edib.

**Təltif olunanlar:**

"Report" - Səlcuq Elçin, Nəcməddin Quluzadə, Vüqar Xanlarov,

Oxu.Az - Mərahim Nəsib

Baku TV - Nərmin Muradova, Həzrət Bayramlı

PhotoStock.az - Tapdıq Abdullayev, Rüfət Mikayılov

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1801
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ZAVOD VAR, XAMMAL YOX



**Emal müəssisələri daha çox ucuz xammal məhsulu alır. Bu da meyvə yetişdirən fermerlər üçün sərfəli sayılmır. Ekspertlər bildirirlər ki, yeni emal müəssisələri üçün onların tələbinə uyğun yeni sortlar yetişdirilməlidir.**

SEVİNC ABBASOVA

Azərbaycanda meyvə emalı sahəsində irimiqyaslı sənaye layihəsinin icrasına başlanılıb. Tikintisi davam edən müəssisə dörd hektarlıq sahəni əhatə edir və burada 112 nəfərin daimi işlə təmin olunması nəzərdə tutulur. Zavodda əsasən meyvə konsentratı istehsalı və qablaşdırılması həyata keçiriləcək. İllik dörd min ton alma konsentratı istehsal edilməsi planlaşdırılır ki, bunun üçün 28-30 min ton təzə almanın emalına ehtiyac olacaq. Zavodun rəsmi açılışı bu ilin sentyabr ayına planlaşdırılır. Proqnozlara görə, müəssisənin istifadəyə verilməsi, ilk növbədə, yerli kənd təsərrüfatı sektoruna mühüm dəstək olacaq, həm də meyvə emalı sahəsində yerli və beynəlxalq bazara yüksək keyfiyyətli məhsullar təqdim etməyə imkan yaradacaq.

Bəs, görəsən, yeni emal zavodunun fəaliyyətə başlaması bu sahənin inkişafına təkan verə bilərmi?

## FERMERLƏRİN GƏLİRLƏRİ ARTACAQ

İqtisadçı-ekspert Eyyub Kərimlinin fikrincə, ölkədə yeni emal müəssisələrinin yaradılması olduqca vacib və təqdirəlayiq haldır: "Bəzən müşahidə edirik ki, fermerlər istehsal etdikləri meyvə-tərəvəzi sata bilmirlər və məhsullar xarab olduğuna görə tullamaq məcburiyyətində qalırlar. Saxlama anbarlarında məhsulu saxlamaq da baha başa gəlir. Böyük emal müəssisələrinin mövcudluğu bu cür halların qarşısını ala bilər".

Ekspert vurğulayır ki, ölkəmizdə almaçılıq yaxşı inkişaf edib və istehsal yerli tələbatdan dəfələrlə yüksəkdir: "Bəzi hallarda almanın qiyməti o qədər ucuz olur ki, yol kənarlarında 5-10 kiloqramını cəmi bir manata satırlar. Yeni zavod həm də ümumi iqtisadiyyatımıza müsbət təsir göstərə, ixrac imkanlarını artıra və yerli brend olan alma şirəmizin xarici bazarlara çıxışını təmin edə bilər. Bu məhsullar daxili bazarda da maraq doğura bilər. Bu baxımdan, yeni emal müəssisəsinin işə düşməsi həm almaçılığın inkişafına, həm də bu sahədə çalışan fermerlərin gəlirlərinin artmasına müsbət təsir göstərəcək".

## "QİYMƏT UYĞUN OLMASA, MARAQ DA OLMAYACAQ"

Fermerlərin mövqeyi isə yeni zavodun fəaliyyətinə daha ehtiyatlı yanaşmanı ortaya qoyur. İsmayıllı rayonundan olan fermer Səlahəddin Məmmədov bildirir ki, hazırda həm yerli, həm də xarici bazarla işləyirlər. Əsas ixrac bazarlarının ərəb ölkələri və Özbəkistan olduğunu qeyd edən fermer deyir: "10 ildir bu işlə məşğulam və bu sahəyə kifayət qədər dövlət dəstəyi var. Bu il məhsuldarlıq yaxşıdır. İldə təxminən 1000 ton məhsul əldə edirik. Amma hazırda Azərbaycanda fəaliyyət göstərən şirə emalı zavodları xammal tapmaqda çətinlik çəkirlər. Çünki belə müəssisələr adətən tullantı meyvələrdən istifadə edirlər. Bizdə isə bu qədər tullantı meyvə yoxdur. Olan miqdar da zavodların ehtiyacını tam qarşılamır. Məsələn, Qəbələdə yerləşən konserv zavodu ilin təxminən bir ayı fəaliyyət göstərir. Göyçay, Quba-Qusar zonası və cənub bölgəsindəki digər emal zavodlarında da vəziyyət eynidir. Əgər yeni zavod təzə alma alacaqsa, bu, almaçılığın inkişafında müəyyən rol oynaya bilər. Amma bu da təklif olunacaq qiymətdən asılı olacaq".

Fermerin sözlərinə görə, məhsulun maya dəyəri ilə zavodların təklif etdiyi alış qiyməti arasında ciddi fərq var: "Bizim əkdiyimiz almanın bir kiloqramının maya dəyəri 30 qəpikdir. Əgər zavod onu 40 qəpiyə alsa, bu, emal müəssisəsi üçün sərfəli olmayacaq. Emal üçün məhsulun maksimum 10 qəpiyə alınması tələb olunur. Amma 10 qəpiyə heç bir fermer alma yetişdirib zavoda verməz".



## MƏHSULUN BİR TONUNA 50-60 MANAT TƏKLİF EDİLİR

Qubalı fermer Dəyanət Vəliyev də yeni emal zavodunun almaçılığın inkişafına əhəmiyyətli təsir göstərməyəcəyi qənaətindədir. Onun fikrincə, bu müəssisələr fermerlərdən məhsulu olduqca ucuz qiymətə alırlar: "Bəzən təklif olunan qiymət yığım xərclərini belə ödəmir. Emal müəssisələri daha çox yeni iş yerlərinin yaradılması baxımından iqtisadiyyata fayda verir. Əgər təzə alma alsalar belə, bu, fermerlər üçün sərfəli deyil. Hazırda zavodlar məhsulun bir tonunu 50-60 manata alır. Halbuki bir ton məhsulu yığıb zavoda aparmaq üçün təkcə nəqliyyat xərci bu qədər tutur. Qiymət 70-80 manata yüksəlsə belə, fermer üçün yenə sərfəli deyil. Çünki bir ton məhsulun yetişdirilməsi sahibkara 150-200 manata başa gəlir. Bu məbləğin emal zavodları tərəfindən ödəniləcəyi isə inandırıcı deyil".


Eyyub Kərimli

## "QİYMƏTLƏR DƏ İSTEHSALÇILAR ÜÇÜN CƏLBEDİCİ OLMALIDIR"


Başir Quliyev

Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Başir Quliyev isə bu addımın fermer maraqlarına cavab verdiyini düşünür: "Təbii ki, qiymətlər də istehsalçılar üçün cəlbedici olmalıdır. Meyvə-tərəvəz istehsalı kənd təsərrüfatının ən çətin sahələrindən biridir. Fermer üçün əsas iki məsələ var – məhsuldarlıq və satış qiyməti. Bu istiqamətdə ən vacib məqamlardan biri ixrac bazarlarının şaxələndirilməsidir. Məhsulun daha çox və daha əlverişli bazarlara çıxarılması əsas məqsəd olmalıdır".

Başir Quliyev hesab edir ki, bu məqamda emal müəssisələrinin rolu iki istiqamətdə nəzərdən keçirilməlidir. Əsasən, hansı məhsulların emal olunacağı və həmin məhsulların satılacağı bazarlar müəyyənləşdirilməlidir: "Məsələyə təkcə emal baxımından deyil, eyni zamanda emal üçün nəzərdə tutulan məhsulun növü baxımından da yanaşmaq lazımdır. Hazırda Azərbaycanda intensiv bağçılıqda istehsal olunan almanın böyük hissəsi masa sortlarıdır, yəni birbaşa satış üçün nəzərdə tutulan yüksək keyfiyyətli sortlardır. Bu sortlar əsasən xarici bazarlarda yüksək qiymətlərlə satılır. Belə alma emal üçün nəzərdə tutulan xammal deyil. Əgər emal müəssisələri işləyəcəksə, onlar üçün xüsusi sortların, daha ucuz və emala yararlı almanın əkilməsi təşviq edilməlidir".

# PEŞƏKAR SÜRÜCÜ, YÜKSƏK XİDMƏT

İslahatlardan əvvəl taksi ilə qısa məsafəli sifarişlər 40 faiz təşkil edirdisə, hazırda bu rəqəm 13-14 faizə qədər düşüb. Nəticədə sərnişinlər qısa məsafə üçün avtobus və digər ictimai nəqliyyatdan istifadə edirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Cari ilin yanvar-iyul aylarında Azərbaycanda taksi xidmətindən istifadə edən sərnişinlərin sayı 47 137,4 nəfər olub ki, bu da illik müqayisədə 0,1 faiz azalma deməkdir. Məlumata əsasən, ötən ilin yanvar-iyul aylarında ölkə üzrə taksi xidmətindən 47 184,6 müştəri istifadə edib. Qeyd edək ki, bu ilin yanvar-iyul aylarında Azərbaycanda nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan avtomobil nəqliyyatı ilə daşınan sərnişinlərin sayı 5 faiz artaraq 1 187 694,8 min təşkil edib. Rəqəmlərdən də göründüyü kimi taksidən istifadə edən vətəndaşların sayı azalıb. Bu azalmanı taksi islahatları ilə əlaqələndirmək olarmı? Taksi islahatları məqsədinə çatdımı? Hazırda vəziyyət necədir?

### "TAKSİLƏRLƏ GEDİŞLƏRİN SAYI 41,8 FAİZƏ QƏDƏR AZALIB"

AYNA-dan sorğumuza cavab olaraq bildirildi ki, taksi islahatı üzrə bu vaxtadək həyata keçirilən tədbirlər birinci mərhələni əhatə edir: "Bu mərhələdə əsas məqsəd taksi parkının yenilənməsi, bu sahədə uçotun, nizamlı fəaliyyətin və nəzarət mexanizminin qurulması, sürücülərin təlimlərə cəlb edilməsi və digər məsələlərdir. Rəqəmlər göstərir ki, 2025-ci ilin ilk beş ayı ərzində şəxsi avtomobillər və taksilərlə həyata keçirilən gedişlərin sayı 41,8 faizə qədər azalıb. Bu müddət ərzində ictimai nəqliyyatın payı isə 33,9 faizə qədər artıb. Bu, ilk növbədə sərnişinlərin avtobusla gedişlərə marağının artması, ictimai nəqliyyatın daha da optimallaşdırılması, marşrut şəbəkəsinin genişləndirilməsi və infrastrukturun təkmilləşdirilməsi, o cümlədən qovşaqların yaradılmasının nəticəsində mümkün olub".

Qurumdan qeyd edildi ki, islahatlardan əvvəl taksi ilə qısa məsafəli sifarişlər 40 faiz təşkil edirdisə, hazırda bu rəqəm 13-14 faizə qədər düşüb: "Nəticədə sərnişinlər qısa məsafə üçün avtobus, mikrobillik və digər ictimai nəqliyyatdan istifadə edir.

İslahatların başlanması ərəfəsində Bakı şəhərində taksilərin sayı təxminən 67 000 ədəd olmaqla ortalama qabaqcıl beynəlxalq təcrübə göstəricisindən təxminən üç dəfə çox idi. Hazırda icazə alan taksi minik avtomobillərinin sayı 29 000-dən çoxdur. Bu da ortalama qabaqcıl beynəlxalq təcrübə göstəricisinə uyğundur".

**Taksidən istifadə**
**2025-ci il, yanvar-iyul**

**47 137,4**
**nəfər**

### "GƏLƏN İL BELƏ OLMAYACAQ"

Nəqliyyat eksperti Aslan Əsədov da bildirdi ki, taksi xidmətindən istifadənin azalması taksi islahatları ilə əlaqədardır: "Amma bu ilin sonu və gələn il belə olmayacaq. Çünki paytaxtda gələn ildən metropolitenin iki stansiyasında tunelqazma işləri həyata keçiriləcək. Bu səbəbdən insanlar yenidən taksidən daha çox istifadə edəcəklər".

### "Taksi islahatları xidmətin yüksəldilməsini nəzərdə tutur"

A.Əsədovun fikrincə, taksi islahatları sərnişin daşınmasında xidmət səviyyəsinin yüksəldilməsini nəzərdə tutur: "İslahatlar nəticəsində taksi sahəsinə daha müasir avtomobillər gətirildi. Sürücülər təlimatlandırıldı, kurslara cəlb olundu, artıq imtahandan keçərək seçilirlər. Sürücü-sərnişin münasibətləri də mədəniləşib. Artıq qeyri-etik davranışı olan sürücülər mövcud deyil. Bunlar nəqliyyat vasitələrinin rentabelliyinin artırılması, vətəndaşların rahat gedişinin təmin olunması üçün görülən tədbirlərin nəticəsidir". Ekspertin sözlərinə görə, taksi islahatları ümumi istifadədə olan nəqliyyat vasitələrinin əlçatanlığında çətinlik yaradıb. Bu da insanlarda narahatlıq doğurur: "İslahatlar taksi fəaliyyətində vətəndaşların əlçatanlığınını təmin olunması, nəqliyyat vasitələrinin rentabelliyinin artırılmasına xidmət etməlidir".

### "Taksiyə artıq əyləncə naminə gələn insanlar yoxdur"

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov isə düşünür ki, taksidən istifadənin azalmasının əsas səbəbi ictimai nəqliyyatın, xüsusən də avtobusların daha keyfiyyətli xidmət göstərməsidir: "Həmçinin ictimai nəqliyyatda istismara buraxılan marşrutlar daima yenilənir. Həm özəl, həm də dövlətin balansında olan daşıyıcı şirkətlər nəqliyyat vasitələrini yeniləyirlər".

E.Cəfərov bildirdi ki, taksi daha məsuliyyətli peşə növünə çevrilib: "Taksi islahatları ötən illərdə qəbul olunmuş qayda və qanunlara əsasən həyata keçirilir. Əsas məqsəd taksini daha təhlükəsiz və keyfiyyətli etməkdir. Düşünürəm ki, bu məqsədə qismən də olsa, nail olunub. Belə ki, artıq köhnə, yararsız, sərnişindaşımaya uyğun olmayan nəqliyyat vasitələrini taksidə görmürük. Onların əvəzində taksidə daha yeni avtomobillər istismar olunur. Daha çox hibrid və elektromobil avtomobillər üstünlük təşkil edir. Taksiyə artıq əyləncə naminə gələn insanlar yoxdur. Yalnız təcrübəli şəxslər fəaliyyət göstərirlər. Bu da sürücülərin məsuliyyətini daha da artırır".

Ekspert deyir ki, taksidə keyfiyyətin və təhlükəsizliyin yüksəldilməsi sərnişinlərdən, onların tələbləri, təklifləri və şikayətlərindən asılıdır: "Məsələn, əvvəlki aylarda sərnişinlər şikayət edirdi ki, proqramda başqa avtomobildir, lakin ünvana başqa avtomobil gəlir. Bu problemin həlli üçün SİMA əlavə olundu. Hansı ki, artıq sürücü haqqında məlumat müvafiq qurumlara ötürülür. Bu da taksini daha təhlükəsiz edir. Gələcəkdə də hər hansı problem çıxdıqda, sərnişinlərin iradı ilə bu problemi həll etmək mümkün olacaq. Ümid edirəm ki, getdikcə taksi sahəsində vəziyyət daha da yaxşılaşacaq. Belə olduğu təqdirdə biz keyfiyyət, yüksək təhlükəsizlik standartına çata biləcəyik".



Aslan Əsədov

Eldəniz Cəfərov

# “XARİCDƏ ATTESTATLA TƏHSİL” TƏLƏSİ

Qəbul imtahanlarında kəsilənlərin əksəriyyəti ənənəvi olaraq “xaricdə attestatla təhsil” almaq yolunu seçirlər. Bu seçim get-gedə kütləvi xarakter alır. Amma bu yolu seçənlər özlərini ciddi risklərlə də üz-üzə qoyurlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Ali məktəblərə qəbul olan məzunlar tələbə adını qazanmalarına görə nə qədər sevindilərsə, bu siyahıda yer almayanlar da bir o qədər kədərləndilər. İmtahanlarda kəsilənlərin əksəriyyəti ənənəvi olaraq “xaricdə attestatla təhsil” almaq yolunu seçirlər. Bu seçim get-gedə kütləvi xarakter alır. Gənclərimiz orta ixtisas və ya peşə təhsilinə yönələ, həmçinin qəbul imtahanlarına daha ciddi hazırlaşaraq, növbəti ildə istədikləri nəticəni əldə edə biləcəkləri, yəni daha məntiqli addım ata biləcəkləri halda bilərəkdən özlərini tələyə salırlar.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin bugünlərdə abituriyentlərə və onların valideynlərinə müraciəti də gələcəkdə yaranacaq problemlərin qarşısını almağa yönəlib. Çünki onlar diplomun tanınmaması, təhsilin yarımçıq qalması və s. ciddi fəsadlarla üz-üzə qalırlar. Agentliyin müraciəti də valideyn və abituriyentləri ayıq-sayıq olmağa çağırır: “Xaricdə təhsil imkanlarını nəzərdən keçirərkən bir sıra mühüm məqamlara diqqət yetirmək zəruridir. Ən vacib məqam hər bir elana inanmamaq və asan yollara əl atmamaqdır. Bu məsələyə etinasız və tələsik yanaşmaq gələcəkdə diplomun tanınmaması, təhsilin yarımçıq qalması və digər ciddi fəsadlara səbəb ola bilər. Bu səbəbdən seçiləcək ali məktəbin akkreditasiyası, diplomun ölkəmizdə tanınması, həmçinin təhsil və yaşayış xərclərinin ailə büdcəsinə uyğunluğu əsas meyar kimi nəzərə alınmalıdır”.

Problem millət vəkillərini də, təhsil mütəxəssislərini də narahat edir.

**“TƏHSİL SAHƏSİNDƏ DƏ DƏLLALLIQLA MƏŞĞUL OLANLAR VAR”**

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov dedi ki, ümumiyyətlə bu tendensiya illərdir mövcuddur: “Təəssüf ki, bir çox sahələrdə olduğu kimi təhsil sahəsində də dəllallıqla məşğul olanlar var. Onlar davamlı olaraq xaricdə attestatla qəbulla bağlı elanlar yayır, gənclərimizi xaricə oxumaq üçün göndərirlər. Bir sıra hallarda insanları aldadır, onları düzgün məlumatlandırmırlar. Hazırkı dövrdə belə universitetlərin sayı artıb. Nəticədə gənclərin bir hissəsi sonrakı dönəmlərdə ciddi problemlərlə üzləşirlər. Bizim də tövsiyəmiz ondan ibarətdir ki, valideynlər və gənclər belə elanlara aldanmamalı, ehtiyatlı olmalı, bu cür dəllalların qurbanı olmamalıdırlar”. Millət vəkili bildirir ki, xaricdə bu yolla təhsil alan gənclərin əksəriyyəti ölkəyə qayıtdıqdan sonra ciddi problemlə üzləşirlər. Bəziləri Azərbaycan universitetlərinə transfer olunmaq istəsələr də, bu, alınmır. Gələcəkdə onların diplomlarının tanınması ilə bağlı da ciddi problemlər yaranır: “Gənclər Azərbaycanda həm diplomlarını tanıda, həm də iş tapa bilmirlər. Onların bir hissəsi də universitetdə təhsillərini bitirib qayıda bimirlər”.

## “Biz ciddi şəkildə valideynlərə tövsiyə edirik ki, tələsməsinlər”

Deputatın fikrincə, bəzən valideynlər övladlarını hərbi xidmətdən yayındırmaq üçün, bəzən də həddən artıq ali təhsilə meyl etdiklərindən bu addımı atırlar: “Təbii ki, ali təhsil almaq yaxşıdır, amma əgər uşağın potensialı yoxdursa, ali təhsilə yönəlməsi gələcəkdə valideynlər üçün problem yaradacaq. Artıq ali məktəblərə qəbul bitmək üzrədir. Xaricdə təhsilə yönləndirənlər bilirlər ki, Azərbaycan universitetlərinə qəbul ola bilməyən gənclərin bir qismi öz istəkləri və ya valideynlərinin təkidi və təşviqi ilə xaricdə oxumağa yönəlirlər. Təkcə Türkiyədə 50 minə yaxın azərbaycanlı gənc təhsil alır. Bu, kifayət qədər böyük rəqəmdir. Onların çoxu da diplomla təhsil alanlardır və əksəriyyəti sonrakı dövrdə ciddi çətinliklər yaşayırlar. Ona görə biz ciddi şəkildə valideynlərə tövsiyə edirik ki, tələsməsinlər. Əgər uşaq ali təhsil ala bilmirsə, peşə təhsili ala bilər. Valideynlər dövlət qurumlarının çağırışlarına əməl etməlidirlər. Onlar övladlarını göndərdikləri universitetləri ciddi şəkildə araşdırıb bu ali məktəblərin gələcəkdə nə dərəcədə övladlarına faydalı ola biləcəyinə əmin olmalıdırlar. Valideynlər çalışmalıdırlar ki, bu cür tələlərə düşməsinlər. Əgər tələbələr qayıdıb ölkədə işləmək istəyirlərsə, bu məqamlara diqqət yetirməlidirlər”. Millət vəkili bildirir ki, həmin gənclər ölkəyə döndükdən sonra diplomlarını təsdiqlədə bilmirlər və ondan sonra dövlətdən narazı qalırlar: “Əslində bu məsələdə günah dövlətdə deyil. Hesab edirəm ki, vətəndaşlarımız maksimal dərəcədə diqqətli olmalıdırlar. Hər ali məktəbdə təhsil almaq olmaz. Öz ölkəmizdə də yaxşı universitetlər var. Gənclər peşə təhsilinə üz tutsalar, bu, onların gələcəkdə uğur qazanması üçün də önəmli seçim olar”.

**TƏLƏBƏ DOLAYI YOLLARLA QİYMƏT ALARSA...**

ADA Universitetinin professoru Gülməmməd Məmmədov Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin xəbərdarlığını vacib hesab edir: “Xaricdə akkreditasiyadan keçməmiş, öz ölkələrində tanınmayan universitetlər tələbələri qəbul edir, onlara diplomlar verirlər. Bizim dövlətin də müəyyən şərtləri var. Diplomlar müəyyən çərçivələr daxilində tanınmalıdır”.

G.Məmmədovun fikrincə, bizim cəmiyyətdə attestatla qəbula mənfi baxılır, amma xaricdə kifayət qədər nüfuzlu universitetlər də var ki, tələbələri bu sənədlə qəbul edirlər: “Bu, “Açıq qapı” prinsipi ilə həyata keçirilir. Tələbələr təhsil aldıqları müddətdə ödəniş edərək, dərslərə davam edirlər. Dərslərdən müvəffəqiyyətlə keçəndə kreditlər toplayıb sonda o şərtlərə cavab versələr, diplom alırlar. Amma bunu edən universitetlər əslində yüksək etik standartlarla fəaliyyət göstərən ali məktəblər olmalıdır ki, onların tədris prosesinə etibar edəsən. Bütün universitetlər isə belə deyil. Tələbə hansısa dolayı yollarla qiymət ala bilərsə, universitetin belə tələbə qəbul etməsi yaxşı hal deyil. Ona görə valideyn və abituriyentlər diqqətli olmalıdırlar”.


Ceyhun Məmmədov
Gülməmməd Məmmədov

Foto: Rüfət Mikayılov-Firudin Səlimov/Global Photostock

# AZALTMAĞA ÇALIŞSAQ DA, ARTIR



Tullantıların miqdarında artım qeydə alınıb. Ekspertlər bunu əhali və istehsal artımı ilə əlaqələndirirlər. Qurumlar bu sahədə fəaliyyətlərini nizamlı qursalar da, bəzi çatışmayan məqamlar var.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Ötən il ölkədə 4365 min ton və ya əvvəlki illə müqayisədə 6,8 faiz çox tullantı yaranıb. Onun 69,3 faizini bərk məişət tullantıları, 30,7 faizini isə müəssisələrin istehsal fəaliyyəti nəticəsində yaranmış müxtəlif növ tullantılar təşkil edib. Müəssisələrin istehsal fəaliyyəti nəticəsində 2024-cü ildə 260,2 min ton təhlükəli tullantı yaranıb və tullantıların ümumi miqdarında onların payı altı faiz olub. Tullantıların 71,9 faizi mədənçıxarma sənayesi müəssisələrində yaranıb ki, onların da böyük hissəsi Bakı şəhərində yerləşən müəssisələrin payına düşür. Rəqəmlərdən də göründüyü kimi, tullantıların miqdarında artım müşahidə edilib.



Faiq Mütəllimov

### TƏHLÜKƏLİ TULLANTILARIN ZƏRƏRSİZLƏŞDİRİLMƏSİNƏ NAZİRLİK NƏZARƏT EDİR

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov nazirliyin yalnız təhlükəli tullantılara nəzarət etdiyini bildirdi: "İstehsal prosesi zamanı əmələ gələn təhlükəli tullantılar bu sahədə ixtisaslaşmış şirkətlərlə müqavilə bağlanılaraq zərərsizləşdirilməsi üçün emala, yaxud xüsusi ayrılmış ərazidə basdırılmağa göndərilməlidir. Partlayıcı və radioaktiv maddələr istisna olmaqla, ətraf mühit və insan sağlamlığı üçün təhlükə yarada biləcək bütün növ təhlükəli tullantıların Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Tullantıları İdarəetmə Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən qəbul edilərək zərərsizləşdirilməsi və utilizasiyası həyata keçirilir. Təhlükəli tullantılar sağlamlığın mühafizəsi, əməyin təhlükəsizliyi qaydaları, ətraf mühitin qorunması tələbləri nəzərə alınmaqla, təhlükəlilik kateqoriyasına görə çeşidlənir, xüsusi ayrılmış avtomobillərlə daşınaraq xüsusi hücrələrdə zərərsizləşdirilir. Torpaqla və ətraf mühitlə təmasının olmaması üçün hücrələr yüksək keyfiyyətli müasir geomembran və geotekstil materiallarla tam izolyasiya olunur".

### 930 MİN TON BƏRK MƏİŞƏT TULLANTISI TƏHVİL VERİLİB

Bərk məişət tullantılarının zərərsizləşdirilməsini həyata keçirən "Təmiz Şəhər" ASC-dən bildirildi ki, bu qurumun fəaliyyətində başlıca məqsəd Bakı şəhərində və ətraf ərazilərdə tullantıların idarə olunması sistemini təkmilləşdirmək, ekoloji vəziyyəti yaxşılaşdırmaq və tullantıların zərərsizləşdirilməsini təmin etməkdir: "Qarşıya qoyulan hədəf və məqsədlərə çatmaq üçün vacib istiqamətlərdən biri bərk məişət tullantılarının düzgün idarə edilməsidir. Hazırda əhalinin artması, tələbatın çoxalması təbii ehtiyatların tükənməsinə və tullantıların həcminin artmasına səbəb olur".

Qurumun məlumatına görə, tullantıların idarə edilməsi prosesi hazırda Bakıda müasir üsullarla həyata keçirilir və 2024-cü ildə "Təmiz Şəhər" ASC-nin təsərrüfat sahələrinə ümumilikdə 930 min tona qədər bərk məişət tullantısı gətirilərək təhvil verilib.

## "TULLANTILARIN ARTMASININ MÜXTƏLİF SƏBƏBLƏRİ VAR"

Ekoloq Kənan Kərimli bildirdi ki, tullantıların artmasının müxtəlif səbəbləri var: "Əsas ana səbəb əhali artımı və bərk məişət tullantılarının həcminin artmasıdır. Çeşidin çox olması sonda tullantıya gətirib çıxarır. Müəssisələrin istehsal proseslərində tullantıların azaldılması üçün tədbirlər yetərli deyil. Statistikaya əsasən, hər 50 müəssisədən birində ekoloq var. Tullantılar düzgün idarə olunmur. Halbuki ekoloq həmin tullantını normal idarə edə, müəssisəyə də əlavə gəlir gətirə bilər. Çünki bir müəssisənin tullantısı digər bir istehsalat sahəsinin xammalıdır. Geri dönüş və təkrar emal texnologiyalarının zəif tətbiqi hökm sürür. Hər hansı bir tullantı sahibkara lazım deyilsə, digər sahibkarlara xammal kimi təklif olunmur".

Ekoloqun sözlərinə görə tullantıların idarə edilməsi təkcə çirklənmənin qarşısını almaq deyil, həm də resursların səmərəli istifadəsi, iqtisadiyyatın yaşıl transformasiyası və ictimai sağlamlığın qorunması ilə bağlıdır: "Tullantıya zibil kimi yox, xammal kimi baxmaq lazımdır. Zərərsizləşdirmə, basdırılma, yandırılma ən sonda ağıla gəlməlidir. Üç mərhələyə (azaltma, yenidən istifadə, geri dönüş) investisiya artırılmalı və sərt nəzarət olmalıdır".

K.Kərimlinin fikrincə, qanunvericilik, texnologiya, maarifləndirmə bir-birini tamamlamalıdır: "Tullantılar ilə bağlı qanun sərtdir, yalnız nəzarət mexanizmini gücləndirmək lazımdır. Maarifləndirmə isə orta məktəbdən, hətta ibtidai sinifdən başlamalıdır".

## TULLANTILARIN İDARƏ EDİLMƏSİ MEXANİZMİ TƏKMİLLƏŞDİRİLMƏLİDİR

Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov da düşünür ki, plastik məhsullar istehsal edən müəssisələr məsuliyyətli olmalıdır: "Plastik tullantıları istehsal edən, yaxud ölkəyə gətirən şirkətlər öz məhsullarının sonrakı taleyi ilə bağlı məsuliyyət daşımalıdırlar. Ölkəmizdə müxtəlif plastik məhsullar istehsal edilir və satışa çıxarılır və sonda onların əksəriyyəti təbiətə atılır. Tullantıların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi də vacibdir. Xüsusilə onların çeşidlənməsi, təkrar emala yönəldilməsi".

R.Abbasovun sözlərinə görə, müəyyən qadağaların tətbiqinə də ehtiyac var: "Düzdür, bir sıra plastik vasitələrin istehsalı azaldılıb. Əksər hallarda torbalar pulla satılır. Lakin yenə də bu istiqamətdə təkmilləşdirmələrə ehtiyac var. Satışda olan plastik torbalar xeyli ucuzdur, onlar bahalaşdırılmalıdır. Xüsusi zonalarda ümumiyyətlə plastik vasitələrin istifadəsi qadağan oluna bilər".



# ORQAN ALƏTİNİN VURĞUNU

ELNARƏ DADAŞOVA

**Sənətinə və vətəninə sonsuz dərəcədə bağlı olan Rəna İsmayılova üçün ifadan, konsertlərdən, Bakıdan uzaq düşmək asan deyil. Amma təqdirəlayiq haldır ki, o, repertuarında olan bir sıra əsərlərin səs yazısını Almaniyada kompakt disk şəklində buraxdırıb.**

1981-ci il idi. O zaman Rəna İsmayılova hələ Bakıda yaşayırdı və hər ikimiz Üzeyir Hacıbəylinin adını daşıyan konservatoriyada çalışırdıq. Günlərin birində Rəna xanım konservatoriyanın dəhlizində mənə yaxınlaşdı və əlində tutduğu qoşa vinil vallardan tərtib olunmuş iri bir albomu uzadaraq, dedi: “Al bunu. Sənə bağışlayıram. Vaqif Mustafazadənin caz kompozisiyalarının səs yazıları olan vallardır. Elnarə, bilirəm ki, sən də Vaqif Mustafazadə yaradıcılığının vurğunusan. Gəl, ona bir ithaf yaz. Orqan üçün bəstələ, mən də ifa edim”.

### “ELƏ HƏMİN GÜN “POSTLYUDİYA”MI BƏSTƏLƏMƏYƏ BAŞLADIM”

Evə gəldim, kövrəlmişdim. Vaqifin itkisindən çox az vaxt keçmişdi, cəmi iki il. Həm də Vaqif dünyasını lap cavan ikən, 39 yaşında dəyişmişdi. Amma sənəti bizim ürəklərimizdə elə bir iz qoymuşdu ki, hər birimiz onun itkisini son dərəcə kəskin hiss edirdik. Odur ki, dərdli-dərdli valları səsləndirdim, ürək ağrısına baxmayaraq, diqqətlə qulaq asdım. Caz-muğam yaradıcısının barmaqları altından süzülüb gələn musiqinin sədaları o qədər təsirli idi ki, elə həmin gün Vaqif Mustafazadənin xatirəsinə “Postlyudiya”mı bəstələməyə başladım. Tez bir zamanda iki hissədən ibarət musiqimin əlyazması hazır oldu. Notları götürdüm, Rənanın məşq etdiyi saatda üz tutdum Bakı Musiqi Akademiyasının böyük zalına. Maraqlı və yaradıcılıqla dolu birgə işimiz başladı. Nə Rəna İsmayılova cazmen idi, nə də mən. Amma Vaqif Mustafazadə sənətinə olan rəğbətimiz bizi “alovlu cazmen” etmişdi. “Postlyudiya”mın birinci bölümü tam olaraq caz improvizəsi idi. Onu tam sərbəst tərzdə qələmə almışdım: vəzn azad, ifa da cazsayağı, sərbəst .

### “RƏNA XANIMIN USTALIĞINI ƏYANİ OLARAQ GÖRDÜM”

Bu yerdə mən Rəna xanımın ustalığını, müəllifin tələblərinə necə riayət etdiyini əyani olaraq gördüm. O, bütün istəklərimə böyük diqqət ayırır, səslənməni orqan alətinin xüsusi tembr düyməciklərinə uyğun, müvafiq olan tərzdə sıralayırdı. Beləliklə, orqanın sonsuz tembr imkanlarına arxalanaraq yazıya alır, sıralayır, kağızın yaddaşına köçürür və ifa zamanı istifadə edirdi.

İthafımın ikinci bölümü “Xoral” idi. Onu “Gözəlim sənsən” adlı Azərbaycan xalq mahnısının əsasında bəstələmişdim. Burada Vaqif Mustafazadə itkisinin faciəsi orqan alətinin tük ürpədən səslənməsi ilə verilmişdi. Rəna xanım bu bölümün icrası zamanı da ifaçı qarşısında qoyulan tələblərin öhdəsindən ustalıqla gəlmişdi. Onunla işləmək zövq verirdi. O, müəllifin hisslərini o dərəcədə dəqiq, təsirli, mənimsənilmiş bir tərzdə çatdıra bilirdi ki, sanki əsəri elə özüm çalırdım.

Tez bir zamanda Vaqif Mustafazadənin xatirəsinə “Postlyudiya” həm Bakıda, həm də İrəvanda Rəna İsmayılova tərəfindən ifa olundu. Əsərin səs yazısı Azərbaycan televiziyasının fonotekasına daxil edildi.

“Postlyudiya”nın hüznlü sədaları Rəna xanımın ifasında o vaxtlar təşkil olunan orqan konsertlərində də səsləndirilirdi. Lakin Rəna xanım Azərbaycanı tərk edəndən sonra əsərin yalnız səs yazısı efirə verilir. Son dəfə “Postlyudiya” 15.12.2022 ildə qonağı olduğum Tofiq Həsənsoyun “Caz ulduzları” verilişində səsləndirildi. Onu da qeyd edim ki, Rəna İsmayılovanın ifasından təsirlənən pianoçular məndən bu əsərin fortepiano versiyasını da istəmişdilər. İndi fortepianoda da “Postlyudiya”nı çalırlar.

### “ONUN TƏKLİFİ İLƏ “SÜSƏN SÜNBÜL” MÖVZUSUNA VARİASİYALARIMI BƏSTƏLƏDİM”

“Postlyudiya”nın ardınca yenə də Rəna xanımın təklifi ilə “Süsən sünbül” mövzusuna variasiyalarımı bəstələdim. Azərbaycan televiziyasında o vaxt efirə gedən “Dalğa” proqramında bu variasiyaların Rəna xanımın ifasında səslənməsi böyük əks-səda doğurdu. Bu zaman efirə baxanların sırasında Xalq şairi Bəxtiyar Vahabzadə və tarzən Kamil Əhmədov da var idi. Veriliş efirə gedən kimi Bəxtiyar müəllim Zümrüd xanım Dadaşzadəyə zəng etmiş, “Süsən sünbül” mövzusuna olan bu variasiyaları bəyəndiyini bildirmiş, ondan mənim telefon nömrəmi istəmişdi. Zəng etdi və dedi ki, mənimlə yaradıcılıq əlaqəsi qurmaq istədiyini dedi. Bu tanışlıq sayəsində mənim Bəxtiyar Vahabzadənin sözlərinə “Ürəyinə vuruldum” adlı mahnım həyata vəsiqə tapdı. Telefon söhbətimiz zamanı Bəxtiyar müəllim Azərbaycan xalq melodiyalarının orqan alətində bu cür gözəl səslənməsinin mümkünlüyü barədə sual verdi. Bildirdim ki, hər şey bəstəkar və ifaçıdan asılıdır. Kamil Əhmədov isə bu verilişdən duyğulanaraq telefonla bildirdi ki, heç kimə səsləndirmədiyi bir neçə xalq havasını mənimlə ifa etmək istəyir.

### VƏTƏNDƏN UZAQLARDA...

Orqan alətinin mahir ifaçısı olan Rəna xanıma isə son dərəcə minnətdaram. O, Azərbaycan bəstəkarlarını bir çox yeni əsərlərini orqan üçün bəstələməsi üçün səfərbər etdi. Rəna xanım bu bəstəkarları həvəsləndirə bilmişdi. Orqan üçün musiqi yazmaq kimi maraqlı fəaliyyətə həvəslə cəlb olunmuşduq. Ümumiyyətlə, fəal ifaçı varsa, yazmağa həvəs də olur. Amma Rəna xanımın Almaniyaya köçməsi ilə bu əməkdaşlıq durğunluq dövrünü yaşadı.

Ümumiyyətlə, sənətinə və vətəninə sonsuz dərəcədə bağlı olan bu sənətkara ifadan, konsertlərdən, Bakıdan uzaq düşmək çox ağrılı anlar yaşatdı. Amma son dərəcə təqdirəlayiq haldır ki, Rəna xanım öz repertuarında olan bir sıra əsərlərin səs yazısını məhz Almaniyada kompakt disk şəklində buraxdırıb. Bu diskə xarici bəstəkarlarla yanaşı, Azərbaycan bəstəkarlarının, o cümlədən mənim də əsərimi daxil edib. O, Azərbaycanı, Vətənini unutmur, darıxır. Biz də onun kimi bir orqan ifaçısı üçün darıxırıq...



ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
İDMAN
30 AVQU... ...NBƏ 2025
www.kaspi.az




“Qarabağ” Çempionlar Liqasının Liqa mərhələsində iştirak etmək hüququ qazandı. Mövsümün sonunda heyətdə baş verən dəyişikliklərə, xüsusən hücum xəttindəki çatışmazlıqlara görə komandanın bu uğuru əldə edəcəyi o qədər də inandırıcı görünmürdü. Amma çempionumuz boyundan yuxarı tullanmağı bacardı.

# SƏKKİZ İL SONRA TƏKRARLANAN UĞUR

“Qarabağ” növbəti dəfə adını Azərbaycan futbolu tarixinə qızıl hərflərlə yazdırmağı bacardı. Avrokuboklardakı ən uğurlu təmsilçimiz ikinci dəfə Çempionlar Liqasının əsas mərhələsində iştirak edəcək. İlk dəfə 2017/18 mövsümündə qrupa yüksələn Qurban Qurbanovun komandası bu dəfə Liqa mərhələsinin ləzzətini “dadacaq”.

### ƏSAS MƏRHƏLƏYƏ APARAN YOL

“Qarabağ” qitənin bir nömrəli klub turnirində mübarizəyə II təsnifat mərhələsindən başladı. Burada rəqib İrlandiya təmsilçisi “Şelburn” idi. Rəqiblə hər iki qarşılaşma “atlılar”ın qələbəsi ilə yekunlaşdı. Səfərdə üç cavabsız qolla üstün olan çempionumuz Bakıdakı cavab oyununda çox güc sərf etmədən minimal hesablı qələbə ilə kifayətləndi. III təsnifat mərhələsindəki rəqib daha güclü olsa da, ümumilikdə, “Qarabağ”ın pley-off yolu rahat görünürdü. Burada Şimali Makedoniyanın “Şkendiya” kollektivi ilə üz-üzə gələn ağdamlılar yenə hər iki oyunda qalib gəlməyi bacardılar. Səfərdəki minimal hesablı qələbənin ardınca komandamız ev oyununda rəqibinə heç bir şans vermədi - 5:1.

“Qarabağ” Liqa mərhələsinə vəsiqə uğrunda köhnə tanışı, Macarıstanın “Ferentsvaroş” klubu ilə üz-üzə gəldi. Komandalar ÇL-in 2022/23 mövsümünün III təsnifat mərhələsində üz-üzə gəlmiş, Bakıdakı 1:1 hesablı heç-heçədən sonra “Qarabağ” səfərdə rəqibini 3:1 məğlub edərək pley-offa adlamışdı. Həm “Şelburn”, həm “Şkendiya”dan güclü olan Macarıstan klubu ilə oyunlar gözlənildiyi kimi gərgin keçdi. Budapeştdə dramatik məcrada davam edən oyunun ilk hissəsini meydan sahibləri minimal üstünlüklə başa vurdular. Lakin fasilədən sonra komandamız meydanda fırtına kimi əsdi. Marko Yankoviç, Kevin Medina və Musa Qurbanlının qolları ilə möhtəşəm geridönüşə imza atan təmsilçimiz tapşırığın böyük hissəsini həll etmişdi. Bununla belə, Bakıdakı cavab qarşılaşmasının heç də asan keçməyəcəyi bəlli idi. Gözlənilən kimi də oldu. Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən görüşdə də ilk qolu macarlar vurdular. Lakin elə hissənin sonuna qədər “atlılar” nəinki bərabərliyi təmin etdilər, hətta üstünlük qazandılar. Leandro Andrade və Abdullah Zubirin qolları komandamızın işinə yaradı. Bitmək bilməyən ikinci yarı “Ferentsvaroş”un yekunda 3:2 hesablı qələbəsini rəsmiləşdirdi. Xüsusən son dəqiqələrdə rəqib aramsız hücumlarla təzyiq yaratsa da, “Qarabağ”ın müdafiə xətti və qapıçı Mateuş Koxalski sınaqdan üzüağ çıxmağı bacardılar. Komanda məğlub olsa da, bu, qələbəyə bərabər məğlubiyyət idi. “Qarabağ” iki oyunun cəmində 5:4 üstün olaraq Liqa mərhələsinə vəsiqə qazandı.



Foto: Tapdıq Abdullayev/Global Photostock

## Uğura verilən ən böyük dəyər

“Qarabağ”ın növbəti tarixi nəticəsi Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirildi. Dövlət başçısı komandanın qələbəsi ilə bağlı sosial şəbəkə hesablarında paylaşım etdi:

“Azərbaycanın “Qarabağ” klubu UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanaraq futbol tariximizdə yeni bir səhifə yazdı!

“Qarabağ” klubunun bütün komanda heyətini və azarkeşləri təbrik edirəm!”.

Oyundan sonra göz yaşlarını saxlaya bilməyən “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov əsas hədəfə çatdıqlarını söyləyib. Prezident İlham Əliyevin təbrikinə görə qürurlandığını bildirən qələbənin memarı diqqətə görə təşəkkürünü ifadə edib:

“Hədəf Liqa mərhələsinə düşmək idi. Bu cür oyunlar ölkə futboluna inamı daha da çoxaldır. Futbolçular daha da böyüyür. Çox böyük təcrübədir. Hər bir futbolçunun arzusudur ki, ən böyük turnirdə iştirak etsin. Ən azından 3-4 böyük klub olacaq, onların 1-2-ni Bakıda görəcəklər. Bu da futbolun sevilməsi üçün böyük addımdır.

Prezident İlham Əliyev “Qarabağ”ı təbrik edib. Bunu qürur hissi ilə qarşılayıram. Bir daha gördük ki, ölkə başçısı oyunlarımızı izləyir və bizə dəstək olur. Mən də öz növbəmdə bu qələbə münasibəti ilə Prezident İlham Əliyevi və ailəsini təbrik edirəm”.

### “QARABAĞ”I QARŞIDA NƏ GÖZLƏYİR?

Qurban Qurbanovun dediyi kimi, başlıca məqsəd əsas mərhələyə vəsiqə qazanmaq idi. Bu, həm idman nailiyyəti kimi böyük nəticədir, həm də maliyyə cəhətdən kluba ciddi fayda verəcək. “Qarabağ” bununla boyundan yuxarı tullanmağı bacardı. Mövsümün sonunda heyətdə baş verən dəyişikliklərə, xüsusən hücum xəttindəki çatışmazlıqlara görə komandanın bu uğuru əldə edəcəyinə şübhələr çox idi. Lakin bir daha sübut olundu ki, futbolçular gedə bilər, əsas sistemin qalması və davamlılığıdır. Qarşıda təmsilçimizi çətin oyunlar gözləyir. Real yanaşsaq, Liqa mərhələsində şanslar elə də böyük deyil. Lakin əminliklə demək olar ki, “Qarabağ” ad-sanından asılı olmayaraq, heç bir rəqibə asanlıqla təslim olmayacaq. Fanatları bir-birindən zövqlü səkkiz Çempionlar Liqası oyunu gözləyir. Püşkə əsasən, komandamız Liga mərhələsində “Çelsi” (Bakıda), “Liverpul” (səfərdə), “Benfika”’ (səfərdə), “Ayntraxt” (Bakıda), “Ayaks” (Bakıda), “Napoli” (səfərdə), “Atletik” (səfərdə) və “Kopenhagen”lə (Bakıda) qarşılaşacaq.